# Qazaxıstanın KİV və ictimaiyyət nümayəndələri Ağdama səfər ediblər



**Qazaxıstanın KİV və ictimaiyyət nümayəndələri Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.**

Bu barədə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov tviter hesabında yazıb. Nümayəndə heyəti Ağdamda ermənilərin törətdikləri vəhşiliklərlə tanış olub, işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə, Dram teatrının qalıqlarına və Şəhidlər xiyabanına baxış keçiriblər.



# Əsir düşən ruslar bütün sirləri ukraynalılara verdi

**Ukraynın ”Azov” alayı Zaporojye vilayətinin Qulyaypol rayonunda Rusiyanın hücumunu dəf edib və bir neçə rusiyalı hərbçini girov götürüb.**

Axar.az xəbər verir ki, əsir götürülən hərbçilər mövqelərdə yerləşdirilmiş qoşun və texnika ilə bağlı mühüm məlumatları dərhal ukraynalı hərbçilərə ötürüblər.


№ 74 (5596), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 aprel 2022-ci il (cümə axşamı)




# Mayın 4-dən

## Birinci sinfə qeydiyyat başlayır

**Mayın 4-dən 2022-2023-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start veriləcək.**

Təhsil Nazirliyindən verilən məlumata görə, ümumi təhsil müəssisələrinin I siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılacaq.

I sinfə şagird qəbulu üçün valideynlərin (digər qanuni nümayəndələrin) ərizələrinin onlayn qeydiyyatına mayın 4-dən, Azərbaycan bölməsi üzrə məktəb seçimi prosesinə isə mayın 6-dan başlanılacaq.

6 may 2022-ci il tarixindən dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı müsahibəyə yazılmaq üçün qeydiyyat prosesinə də start veriləcək. Müsahibəyə yazılma mərhələsi mayın 30-da başa çatacaq.

Müsahibələrin 10-31 may 2022-ci il tarixlərində ənənəvi formada həyata keçirilməsi nəzərdə tutulur. Müsahibədən uğurla keçən uşaqlar üçün məktəb və müəllim seçimi mərhələsi isə 11-18 iyun tarixlərində keçiriləcək.

Birinci sinfə qəbulla bağlı elektron qeydiyyat prosesi 14 sentyabr 2022-ci il tarixində başa çatacaq.



# Azərbaycan nümayəndə heyəti sülh danışıqlarına başlamağa hazırdır

## Prezident İlham Əliyev ABŞ Dövlət katibi köməkçisinin müavinini məlumatlandırıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer, Gürcüstandakı səfiri Kelli Deqnan və Ermənistandakı səfiri Linn Treysi daxildir.

(səh.2)

# Regiona sülh gəlir

## Azərbaycan-Gürcüstan əməkdaşlığı model kimi istifadə oluna bilər




**“Azərbaycan və Gürcüstan bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyib. Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın Xarici işlər naziri İliya Darçiaşvili ilə birgə mətbuat brifinqində deyib. Nazir bildirib ki, bu il Azərbaycan-Gürcüstan münasibətlərinin qurulmasının 30 illiyi qeyd olunacaq:**

”30 il ölkələrimiz arasında bütün sahələrdə inkişaf dövrü olub. Münasibətlərimizin əsasında tarixi bağlılıq, mehriban qonşuluq prinsipi dayanıb. Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını daim dəstəkləyib. Eyni yanaşmanı biz Gürcüstan tərəfindən görmüşük”.

C.Bayramov qeyd edib ki, ölkələr arasında 1 134 müqavilə imzalanıb: ”Hazırda ölkələr arasında 19 müqaviləyə baxılmaqdadır.

(səh.3)

# Deputatlar üç məsələni müzakirə ediblər

## Şuşada Milli Məclisin birgə komitələrinin iclası keçirilib



**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsi ilə İnsan hüquqları komitəsinin Şuşa şəhərində birgə iclası keçirilib.**

İclasın gündəliyinə üç məsələ daxil edilib.

Deputatlar əvvəlcə işğaldan azad edilmiş ərazilərdə dini abidələrin bərpası sahəsində tədbirlərlə bağlı məsələlər ətrafında müzakirələr aparıblar.

Daha sonra komitələrin üzvləri ”Böyük Qayıdış”, məcburi köçkünlərin torpaq və əmlak hüquqlarının təmin edilməsi və s. istiqamətlərdə çıxışlar ediblər.

# 250 günlük taxıl ehtiyatımız var

## Natiq Cəfərli: “Azərbaycanda qıtlıq yaranacağını düşünmürəm”



**Ukrayna-Rusiya müharibəsinin getdiyi dönəmdə dünyada ərzaq böhranının baş verəcəyinə dair müxtəlif iddialar irəli sürülür.**

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov deyib ki, dünyada taxılın ixracında birinci yerdə Rusiya, beşinci yerdə Ukrayna dayanır.

Deputatın fikrincə, bu gün bu iki dövlət müharibə aparır və müharibənin sonu görünmür:

”Belə reallıqda ərzaq qıtlığı təhlükəsi realdır. Prezident İlham Əliyevin müşavirədə dediyi kimi, Azərbaycan 75 faiz ərzaq taxılını başqa ölkələrdən idxal etmək məcburiyyətindədir.

(səh.5)



# Zelenski və Putin İndoneziyada görüşə bilər

**Ukrayna Prezidenti Volodimir Zelenski ”G-20”liyin İndoneziyada keçiriləcək Zirvə toplantısına dəvət olunub.**

Bakupost.az xəbər verir ki, məlumatı Zelenski ”Twitter” səhifəsində paylaşıb.

”İndoneziyanın Prezidenti Coko Vidodo ilə telefonla danışdıq. Ukraynanın ərazi bütövlüyü və suvereniyini BMT-də dəstəklədiyi üçün ona təşəkkür etdim. Ərzaq təhlükəsizliyi problemini müzakirə etdik. ”G-20”liyin Zirvə toplantısına dəvətə görə təşəkkür edirəm”, - deyə Ukrayna lideri yazıb.

(səh.3)

# Bərdədə zibillikdə tapılan qadın xəstəxanaya yerləşdirilib



**Daxili İşlər Nazirliyi (DİN) Bərdədə anlaqsız vəziyyətdə zibillikdən tapılan qadınla bağlı açıqlama yayıb.**

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan bildirilib ki, rayonun Qasımbəyli kəndində yolun kənarında anlaqsız vəziyyətdə qadın tapılaraq dərhal xəstəxanaya yerləşdirilib.

Müayinə zamanı onun spirtli içkinin təsirindən anlaqsız hala düşdüyü müəyyən olunub.

Hazırda qadının müalicəsi davam etdirilir.

# Daha 13 nəfər koronavirusa yoluxub

## 1 nəfər vəfat edib, 19 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 13 yeni yoluxma faktı qeydə alınıb, 19 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan “Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ölkədə ümumilikdə 792 534 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 782 694 nəfər müalicə olunaraq sağalıb, 9708 nəfər vəfat edib, aktiv xəstə sayı 132 nəfərdir.

Ölkədə son sutka ərzində 4079, hazırkı dövrədək isə 6 805 563 test aparılıb.



# Paşinyan qətiyyətli olmasa, devirəcəklər

## Baş nazirin əleyhdarları terror da törədə bilərlər

(səh.3)

# Bakı yuxarıya deyil, yanlara doğru genişlənməlidir

## Müasir binalar paytaxtın mərkəzi hissəsində Bakının memarlıq üslubuna xələl gətirir



(səh.7)

# Azərbaycan nümayəndə heyəti sülh danışıqlarına başlamağa hazırdır

## Prezident İlham Əliyev ABŞ Dövlət katibi köməkçisinin müavinini məlumatlandırıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer, Gürcüstandakı səfiri Kelli Deqnan və Ermənistandakı səfiri Linn Treysi daxildir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair geniş müzakirələr aparıldı. Həmçinin bu il Azərbaycanla ABŞ arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd olunduğu vurğulandı. Bu müddət ərzində ölkələrimiz arasında uğurlu əməkdaşlıq əlaqələrinin qurulduğu, xüsusilə enerji sahəsində sıx əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparılıb, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin hazırlanması üçün danışıqların aparılması, kommunikasiyaların açılması məsələləri müzakirə edilib. Prezident İlham Əliyev bildirib ki, sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyəti hazırdır.

Dövlət başçısı 30 ilə yaxın davam edən işğal dövründə Ermənistanın ərazilərimizdə törətdiyi dağıntıları, maddi-mədəniyyət adidələrimizin, 60-dan çox məscidin dağıdıldığını və onlardan tövlə kimi istifadə olunduğunu qeyd edib. İşğal dövründə ərazilərimizdə Ermənistan tərəfindən çox sayda minaların basdırıldığını deyən Prezident İlham Əliyev hazırda Azərbaycanın üzləşdiyi mina problemini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı dövlət başçısı birinci Qarabağ müharibəsindən etibarən 4 mindən çox soydaşımızın itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını bildirib, həmin məzarlıqların yerləri haqqında Ermənistan tərəfindən məlumatın verilməsinin vacibliyini vurğulayıb və bununla əlaqədar ABŞ hökumətinin dəstəyinin zəruriliyini qeyd edib.

Görüşdə regionda davamlı sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.



# Bakı və onun qəsəbələrində təhsil müəssisələri tikiləcək

## Prezident Bakı Şəhər İcra Hakimiyyətinə 16 milyona yaxın pul ayırdı

**Prezident İlham Əliyev Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən:

1. Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 fevral tarixli 3143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.37.1-ci yarımbəndində nəzərdə tutulmuş 15.650,0 min (on beş milyon altı yüz əlli min) manat vəsait bu Sərəncama əlavəyə uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinə ayrılır.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncama əlavədə nəzərdə tutulmuş bölgüyə uyğun olaraq maliyyələşməni təmin edəcək.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll edəcək.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.




## Türkdilli dövlətlərin Konstitusiya Məhkəmələri Şurası təsis olunub

**İstanbulda Türkdilli dövlətlərin Konstitusiya Məhkəmələrinin daimi Şurasının təsis edilməsi ilə bağlı iclas keçirilib.**

"Report"un yerli bürosu xəbər verir ki, iclasda Azərbaycan, Türkiyə, Özbəkistan və Qırğızıstandan olan nümayəndə heyətləri iştirak edib.

Qazaxıstan tərəfi isə tədbirə videoformatda qatılıb.

İclasda türkdilli dövlətlər arasında konstitusiya quruculuğunda əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsinin artırılması, habelə məhkəmə sistemində aparılan islahatlar sahəsində birgə tərəfdaşlığı özündə əks etdirən çoxtərəfli sənədlər imzalanıb.

Azərbaycanı tədbirdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev təmsil edir. O, "Report"un yerli bürosuna açıqlamasında türkdilli dövlətlərin belə bir Şurasının yaradılmasının vacib xarakter daşıdığını bildirib.

## Paşinyana qarşı aksiyada 50-dən çox etirazçı saxlanıldı



**Ermənistanın paytaxtı İrəvanın "Azadlıq" meydanında yenidən etiraz aksiyası keçirilib.**

"Qafqazinfo" xəbər verir ki, aksiya "Şərəfim var" parlament fraksiyasının rəhbəri Artur Vanetsyan tərəfindən təşkil olunub.

Aksiya iştirakçıları ölkənin Baş naziri Nikol Paşinyanın siyasətinə etiraz əlaməti olaraq meydana toplaşıblar.

Aksiya zamanı polislə etirazçılar arasında toqquşma yaranıb və 5 aksiya iştirakçısı saxlanılıb.

*Xatırladaq ki, Ermənistan müxalifəti bir neçə gün əvvəl İrəvanda Paşinyana qarşı etiraz aksiyalarına başlayıb.*

## 10 Avropa ölkəsi rus qazını rublla almağa razı oldu

**Rusiya qazını alan 10 Avropa ölkəsi Qazprombankda ödənişlər üçün hesablarını açıb.**

Bakupost.az xəbər verir ki, "Bloomberg"in məlumatına görə, ölkələr arasında Avstriya, Venqriya da var.

Xatırladaq ki, Avropanın 21 dövləti Rusiyanın əsas qaz idxalçısıdır. Onlar Ukrayna məsələsinə görə Rusiyanın "dost olmayan ölkələr" siyahısına salınmışdılar.

Həmçinin 26 apreldən etibarən Qazprom Polşa və Bolqarıstana qaz verilməsini dayandırıb.

Bu ölkələr yeni şərtlərlə ödəniş etməkdən imtina ediblər.

31 mart Sərənəcamına görə Qazpromdan qaz alan ölkələr bankda rublla hesab açıb, ödənişləri rublla etməlidir.

# Problemləri İrəvan yaradır

## Əslində Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda əməkdaşlıq da mümkündür



"Biz də hesab edirik ki, üç ölkənin əməkdaşlığı, kommunikasiyanın vahid sistemə keçməsi region dövlətləri üçün faydalı olar"

**Prezident İlham Əliyev aprelin 27-də Gürcüstanın Xarici işlər naziri İliya Darçiaşvilini qəbul edib. Dövlət başçısı ikitərəfli münasibətlərin ölkələrimiz və xalqlarımızın qarşılıqlı dəstəyinə, həmrəyliyinə əsaslandığını bildirib. Əlaqələrimizin möhkəm təmələr üzərində qurulduğunu deyib.**

Ölkə rəhbəri ötən 30 il müddətində Azərbaycanla Gürcüstan arasında mövcud olan dostluq münasibətlərinin regional sabitlik və əməkdaşlıq işində mühüm amil olduğunu bəyan edib. İqtisadi sahədə əməkdaşlığa toxunan Prezident xüsusilə nəqliyyat sferasında yeni imkanların olduğunu vurğulayıb. Cənubi Qafqazın inkişafı ilə bağlı ölkələrimizin birgə baxışlarının olduğunu deyən dövlət başçısı xüsusilə postmünaqişə dövründə Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda qarşılıqlı fəaliyyət üçün yaxşı imkanların olduğunu söyləyib. Azərbaycan tərəfinin buna hazır olduğunu qeyd edib. Prezident Gürcüstanın da bu mövqeyi bölüşdüyünü diqqətə çatdırıb. Ermənistanın da regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasının yeganə yolunun birgə əməkdaşlıqdan keçdiyini anlayacağına ümidvarlığını ifadə edib.

**Ölkə başçısının diqqət yönəltdiyi məqamı "Şərq"ə dəyərləndirən politoloq Tofiq Abbasov bildirib ki, Prezident İlham Əliyev bir neçə dəfə İrəvanın nəzərinə çatdırıb ki, rəsmi Bakı hərtərəfli əməkdaşlığa hazırdır.** Ekspert vurğulayıb ki, Azərbaycan tərəfi ikitərəfli münasibətlərlə yanaşı, üçlü, dördlü əməkdaşlıq platformaları ilə bağlı mövqeyini ortaya qoyub: "Bir müddət öncə "2+2", yəni Azərbaycan-Türkiyə və Rusiya-Ermənistan formatı gündəmə gəlmişdi. Buna da hazır olduğumuzu açıqlamışdıq. Rəsmi Bakı İrəvanı mürəkkəb seçim, dilemma qarşısında qoymur. Əksinə, məğlub və işğalçı bir dövlətə yeni imkanlar təklif edirik. Ancaq ermənilər buna rəğmən, yenə pozuculuqla məşğul olurlar. Azərbaycanın qonşu Gürcüstanla əlaqələri məlumdur. İki ölkə arasında sıx münasibətlər mövcuddur. Əlbəttə, müəyyən mərhələdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda əməkdaşlıq da mümkündür. Xatırladım ki, ötən əsrin əvvəllərində, konkret 1918-ci ildə Azərbaycan, Gürcüstan və Ermənistan birlikdə "Zaqafqaziya Demokratik Federativ Respublikası" yaratmışdılar. Məntiq etibarı ilə də üçtərəfli format daha münasib görünür. Faktiki olaraq üç qonşu xalqın qarşısında duran prioritetlər oxşardır. Lakin bu əməkdaşlıqda əsas problem Ermənistandır. Elə "Zaqafqaziya Federasiyası" dağıldıqdan, hər üç ölkə öz müstəqilliyini qəbul etdikdən sonra Ermənistan Azərbaycana və Gürcüstana müharibə elan etdi, ərazi iddiaları irəli sürdü. Ermənilərin tarixi işğalçılıq xəstəliyi hələ öz reseptini, müalicəsini tapmayıb".

**T.Abbasov Gürcüstanın Azərbaycan-Ermənistan arasında vasitəçilik təklifinə də toxunub: "Gürcüstan Prezidenti Salome Zurabişvili deyirdi ki, "Tbilisi Bakı-İrəvan arasında vasitəçi rolunu oynaya bilər". Əslində Azərbaycanın buna ehtiyacı yoxdur.** Gürcüstan tərəfi humanistlik nümayiş etdirir, bölgədə sülh tərəfdarı olduğunu göstərir. Biz də hesab edirik ki, üç ölkənin əməkdaşlığı, kommunikasiyanın vahid sistemə keçməsi region dövlətləri üçün faydalı olar. Amma İrəvanla heç bir prosesi sağlam müstəvidə aparmaq mümkün olmur. Çünki Ermənistan rəhbərliyinin sözü ilə əməli bir-birinə uyğun gəlmir. İrəvan öz cığallığını, pozuculuğunu, radikallığını birdəfəlik kənara qoymalıdır. İlk növbədə bizi, sonra Gürcüstanı əmin etsin ki, ərazi iddialarından vaz keçirlər. Rəsmi Bakı problemlərin həlli üçün İrəvana birbaşa ikili görüşlər, vasitəsiz müzakirələr də təklif edir. Çünki vasitəçilər prosesi daha da uzadır, həllini çətinləşdirir".

**İsmayıl Qocayev**

## AMEA-da Qarabağ bölməsinin yaradılması təklif edilib

**AMEA-da Naxçıvan və Gəncə bölmələri kimi Qarabağ bölməsinin də yaradılması təklif edilib.**

Bu təkliflə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Ümumi yığıncaqda çıxış edib.

O bildirib ki, bu bölmədə Qarabağla bağlı tədqiqatların aparılması məqsədəuyğun olardı.

## Elşən Abbasov Bakı şəhər prokuroru təyin olunub

**Bakı şəhərinə yeni prokuror təyin edilib. Bu barədə Trend-in sorğusuna cavab olaraq Baş Prokurorluğun Mətbuat Xidmətindən bildirilib.**

Qeyd edilib ki, Baş prokuror Kamran Əliyev bununla bağlı müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Elşən Abbasov Bakı şəhər prokuroru təyin olunub.

E.Abbasov bu təyinatadək Baş Prokurorluğunun Təşkilat və icraya nəzarət idarəsinin rəisi vəzifəsində çalışıb.

## Zelenski və Putin İndoneziyada görüşə bilər



**Ukrayna Prezidenti Volodimir Zelenski "G-20"liyin İndoneziyada keçiriləcək Zirvə toplantısına dəvət olunub.**

Bakupost.az xəbər verir ki, məlumatı Zelenski "Twitter" səhifəsində paylaşıb.

"İndoneziyanın Prezidenti Coko Vidodo ilə telefonla danışdıq. Ukraynanın ərazi bütövlüyü və suvereniyini BMT-də dəstəklədiyi üçün ona təşəkkür etdim. Ərzaq təhlükəsizliyi problemini müzakirə etdik. "G-20"liyin Zirvə toplantısına dəvətə görə təşəkkür edirəm", - deyə Ukrayna lideri yazıb.

Bildirək ki, Rusiya "G-20"liyin üzvüdür. Məlumata görə, İndoneziya RF Prezidenti Vladimir Putinin dəvət edilməməsinə dair təklifdən imtina edərək, onu da toplantıya çağırıb. Rusiya və Ukrayna liderlərinin həmin sammit çərçivəsində görüşə biləcəyi ehtimal olunur.

*Qeyd edək ki, Zirvə toplantısı 2022-ci il noyabrın 15-16-da İndoneziyanın Bali adasında keçiriləcək.*

# Gürcüstanda rəy sorğusu keçirilib

## Azərbaycanı ən mühüm tərəfdaş hesab edənlərin sayı artıb



**Gürcüstanda Azərbaycanı ən mühüm tərəfdaş hesab edənlərin sayı artıb.**

"Report"un yerli bürosu xəbər verir ki, bu, Beynəlxalq Respublika İnstitutunun (IRI) Gürcüstanda keçirdiyi ictimai rəy sorğusunun nəticələrində əks olunub.

Rəyi soruşulanların 20 %-i Azərbaycanı ölkənin ən mühüm siyasi tərəfdaşı hesab edib.

Respondentlərin 54 %-i Avropa İttifaqı (Aİ), 53 %-i ABŞ-ı, 45 %-i Ukraynanı, 20 %-i isə Türkiyəni Gürcüstanın ən vacib siyasi tərəfdaşı kimi dəyərləndirib.

Rəyi soruşulanların 24 %-nin fikrincə, Azərbaycan Gürcüstanın ən mühüm iqtisadi tərəfdaşıdır. İlk üç ən vacib iqtisadi tərəfdaş kimi Aİ (45 %), ABŞ (42 %) və Türkiyə (32 %) göstərilib.

Sorğu bu ilin martın 4-dən 24-dək yaşı 18-dən yuxarı olan 1 486 respondent arasında üzbəüz müsahibə yolu ilə aparılıb.

Qeyd edək ki, IRI-nin əvvəlki analoji sorğusunun nəticələri ilə müqayisədə qonşu ölkədə Azərbaycanı Gürcüstanın ən mühüm siyasi və iqtisadi tərəfdaşı hesab edənlərin faiz göstəricisi artıb. Belə ki, ötən ilin avqustunda keçirilən sorğunun nəticələrinə əsasən, respondentlərin 15 %-i Azərbaycanı Gürcüstanın ən önəmli siyasi, 19 %-i isə ən önəmli iqtisadi tərəfdaşı kimi qiymətləndirib.

# Regiona sülh gəlir

## Azərbaycan-Gürcüstan əməkdaşlığı model kimi istifadə oluna bilər

**"Azərbaycan və Gürcüstan bir-birinin ərazi bütövlüyünü daim dəstəkləyib. Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın Xarici işlər naziri İliya Darçiaşvili ilə birgə mətbuat brifinqində deyib. Nazir bildirib ki, bu il Azərbaycan-Gürcüstan münasibətlərinin qurulmasının 30 illiyi qeyd olunacaq:**

"30 il ölkələrimiz arasında bütün sahələrdə inkişaf dövrü olub. Münasibətlərimizin əsasında tarixi bağlılıq, mehriban qonşuluq prinsipi dayanıb. Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını daim dəstəkləyib. Eyni yanaşmanı biz Gürcüstan tərəfindən görmüşük".

**C.Bayramov qeyd edib ki, ölkələr arasında 1 134 müqavilə imzalanıb:** "Hazırda ölkələr arasında 19 müqaviləyə baxılmaqdadır. Ötən il ölkələrimiz arasında ticarət dövriyəsinin həcmi 800 milyon dollara yaxın olub. 2022-ci ilin birinci rübündə artıq ticarət dövriyyəsi 262 milyon dollar olub. Bu tempi saxlasaq 2022-ci ildə ticarət dövriyəmiz 1 milyard dolların üstündə olacaq".

**"Azərbaycan-Gürcüstan sərhəd məntəqələrinə dair sazişi yüksək qiymətləndirirk"**

**Ceyhun Bayramov deyib ki, ölkələrimiz çoxtərəfli layihələrdə də tərəfdaşdır:** "Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi Ərzurum layihələrini bizim münasibətlərin uğuru kimi qiymətləndirə bilərik. Bakı-Tbilisi-Qars tarixi əhəmiyyətə malikdir. Mövcud vəziyyət Şərq-Qərb dəhlizinin önəmini daha da artırır. Bu baxımdan burada görülən çoxsaylı işlərdən danışırdıqsa, 2021-ci ildə bu kimi marşrutların uğurlu inkişaf etdirilməsi üçün ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın çox böyük önəmi var. Bu baxımdan Azərbaycan və Gürcüstan arasında imzalanan sərhəd məntəqələrinə dair sazişin əhəmiyyətini çox yüksək dəyərləndiririk. Bu saziş logistika, tranzit sahəsində məsələləri inkişaf etdirməyə böyük töhfə verəcək". XİN başçısı vurğulayıb ki, Azərbaycan və Gürcüstan alimləri tərəfindən birgə tədqiqatlar həyata keçirilir: "Bunun nəticəsi olaraq birgə tarixi irsimizə aid olan layihələr həyata keçirilir. Bunu vaxtından öncə elan etmək istəmirik. Amma bu layihələr 30 illik münasibətlərimizə çox önəmli töhfə olacaq".



Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması Cənubi Qafqazda olan 3 ölkə üçün də maraqlıdır

**"Ermənistanla təmaslarımızın bəzi nəticələri var"**

*Nazir bildirib ki, Azərbaycan və Gürcüstan arasında beynəlxalq çərçivədə də çox uğurlu əməkdaşlıq mövcuddur:* "Bu koordinasiya gələcəkdə də davam etdiriləcək. Ermənistan XİN-lə təmaslarımız nəticəsində bəzi nəticələr var. Ermənistanın xarici işlər naziri ilə 2 telefon danışığım olub. Sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı Komissiyanın fəaliyyətə başlaması üçün artıq şərait mövcuddur".

**"Ermənistandan avtomobil və dəmir yolları ilə bağlı konkret addımlar gözləyirik"**

**Nazir vurğulayıb ki, Azərbaycan öz ərazisində həm dəmir yolu, həm avtomobil yolu layihələrini uğurla icra edir:** "Öz üzərinə düşən hissəsini 2023-cü ilə qədər yekunlaşdırmağı planlaşdırır. Biz Ermənistanda da bu istiqamətdə işlərlə bağlı konkret addımlar gözləyirik. Bölgədə olan proseslər, xüsusilə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından danışarkən bu, ilk növbədə Cənubi Qafqazda olan 3 ölkə üçün maraqlıdır. Gürcüstan tərəfi də bunu dəstəkləyir. Eyni zamanda, Cənubi Qafqaza bizim birgə evimiz kimi baxdığımız zaman Azərbaycan-Gürcüstan əməkdaşlığı burada model kimi istifadə oluna bilər. Bu, istənilən iki qonşu ölkə üçün model rolunu oynayır. Təbii ki, Ermənistan da beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməklə beynəlxalq layihələrdə öz yerini tuta bilər".

**"Azərbaycanla tərəfdaşlıq daha da güclənir"**

**Gürcüstanın Xarici işlər naziri İliya Darçiaşvili deyib ki, Gürcüstan və Azərbaycan arasında sülh, sabitlik və regional inkişafa fokuslanmış tərəfdaşlıq gündəngünə daha da güclənir:** "Dost Azərbaycana rəsmi səfərimə başlamağımdan və Prezident İlham Əliyevlə görüşmək imkanı əldə etməyimdən şərəf duyuram. Biz Gürcüstan-Azərbaycan diplomatik əlaqələrinin 30-cu ildönümünü vurğuladıq. Bizim sülh, sabitlik və regional inkişafa fokuslanmış tərəfdaşlığımız gündəngünə daha da güclənir".

**"Gürcüstan sülhün bərqərar olması üçün yardımçı olmağa hazırdır"**

**İliya Darçiaşvili bildirib ki, Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan dostluğunun daha da möhkəmlənməsində xüsusi rolu var:** "Ölkələrimizin rifahı naminə bizim əməkdaşlığımız daha da möhkəmlənəcək. Həmkarımla görüşdə regionumuzun sabit inkişafı üçün ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirdik. Beynəlxalq əhəmiyyətli, Bakı-Tbilisi-Qars və digər layihələri yüksək qiymətləndirdik. Bu layihələr ölkələrimizin cəlbediciliyini artırır. İki ölkə arasında ticarət əlaqələri ən yüksək səviyyədədir". Darçiaşvili Bakı ilə Tbilisinin qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü tanıdığını da vurğulayıb: "Biz biribirimizin ərazi bütövlüyümüzü dəstəkləyirik". Gürcüstan XİN başçısı qeyd edib ki, regionun inkişafı üçün ölkələr arasında sülh danışıqları davam etməlidir: "Biz istəyirik ki, regionda sülhə nail olunması üçün layihələri davam etdirək. Birgə səylərimizlə biz bütün çətinliklərin öhdəsindən gələ bilərik. Səfər zamanı keçirilən görüşlər ölkələrimiz arasında strateji tərəfdaşlığa böyük önəm verəcək. Gürcüstan sülhün bərqərar olması üçün yardımçı olmağa hazırdır. Bu, digər platformalara ziddiyyət təşkil etmir".

İsmayıl

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov gürcüstanlı həmkarı İliya Darçiaşvili ilə mətbuat konfransı keçirib. C.Bayramov bəyan edib ki, Azərbaycan-Ermənistan Birgə Sərhəd Komissiyasının parametrləri barədə ölkələr arasında razılıq əldə edilib.**

Onun sözlərinə görə, Komissiyanın fəaliyyətə başlaması üçün şərait mövcuddur.Nazir qeyd edib ki, regionda nəqliyyat-kommunikasiya sistemlərinin açılmasına Azərbaycan töhfə verir. Amma vaxt baxımından bəzi məsələlər gözləntilərə uyğun getmir", - deyə nazir əlavə edib. Nazir bildirib ki, layihələrin Ermənistan ərazisində davam etdirilməsi İrəvanın mövqeyindən asılıdır.



# Böyük sülh sazişi imzalana bilər

## Paşinyan yaranmış vəziyyəti düzgün dəyərləndirsə, hakimiyyətinin ömrünü uzadacaq

"Vədlərdən konkret işlərə keçməyin vaxtıdır", - deyə Ceyhun Bayramov Ermənistanı nəzərdə tutaraq deyib.

**Mövcud durumu "Şərq"ə dəyərləndirən politoloq Cümşüd Nuriyev böyük sülh müqaviləsinin imzalanacağına ümid bəsləyir:**

"Artıq ikinci dəfədir ki, Ermənistan XİN rəhbəri bizimlə heç bir vasitəçi olmadan əlaqə yaradır. Həmçinin tərəflər sərhədlərin müəyyənləşməsi üçün komissiyaların formalaşmasında razılaşıblar. Prezidentimizin fikirlərinə əsasən, sərhəd komissiyasının və sülh müqaviləsini hazırlamaq üçün işçi qrupunun tərkibi məlumdur. Ermənistan da bunu diqqətə çatdırır. Rəsmi İrəvan addım atmaq məcburiyyətindədir, başqa şansı yoxdur. Paşinyanı hakimiyyətdən yıxmaq istəyən qüvvələr var. Rusiya faktoru mövcuddur. Əgər Paşinyan Rusiyanın dediyi kimi irəliləsə, onu yıxılmağa qoymayacaq.

ABŞ və Rusiya Qafqaz uğrunda soyuq müharibə mərhələsinə qədəm qoyub. Ermənistan Rusiyanın tərəfində dayanmasa, birmənalı şəkildə ABŞ onun dövlət kimi mövcudluğunu qoruya bilməyəcək. Ukraynadakı hadisələr göz qabağındadır.

ABŞ başda olmaqla bütün dünya ölkələri rəsmi Moskvanın əleyhinədir, amma o da fikrindən dönmür. Ermənistanın Baş naziri həm Moskva, həm də Brüsseldə üçtərəfli bəyannamələrin şərtlərinə əməl edəcəyinə söz verib. ABŞ çox uzaq, Rusiya isə çox yaxındır.

Siyasi oyunların hamısını rus özü təşkil edir. ABŞ-a elə gəlir ki, hakimiyyəti dəyişməyi bacaracaq. Görünür, Paşinyanın tərəfi çox güclüdür. Faşistlər, kilsənin tərəfdarları, Köçəryan-Sarkisyan dueti kimi dəstələr cılız qüvvələrdən ibarətdir. Onların hakimiyyət dəyişmək şansı yoxdur. Paşinyan addım atmadığı təqdirdə şans yüksəkdir".

Aygün Tahir

# Avstriya Azərbaycandan qaz tədarükünə ümid edir



**Avstriyanın Rusiyadan qaz tədarükünü dayandırması illər çəkə bilər. Trend xəbər verir ki, bunu Avstriyanın kansleri Karl Nehammer "OE24.TV" telekanalına müsahibəsində deyib.**

Kansler hesab edir ki, Avstriyanın Rusiya qazından imtinası üçün "beynəlxalq qaz bazarında [qazın] mövcudluğundan asılı olaraq" bir neçə il lazım olacaq. Onun sözlərinə görə, Ukraynadakı hadisələr başlayandan bəri Energetika Nazirliyinin mütəxəssisləri Avstriyanın OMV neft-qaz şirkəti ilə birlikdə iki aydır ki, Avstriyanın Rusiya qazından asılılığını azaltmaq üçün çalışırlar.

"Mən sabahdansa bu gün imtina etməyi üstün tuturam - amma bu real deyil. İndi biz Almaniya, Macarıstan və digər ölkələrlə qaz embarqosuna qarşı maraq qrupu yaratmışıq, lakin eyni zamanda asılılığı azaltmalıyıq", - deyə K.Nehammer bildirib.

Kansler qeyd edib ki, Rusiya qaz tədarükünü dayandırmaq qərarına gəlsə, Avstriyadakı qaz ehtiyatı yalnız iki ay yarım üçün bəs edə bilər. "Energetika naziri OMV şirkəti ilə birlikdə yeni tədarük mənbələri axtarır, məsələn, Azərbaycandan. Ancaq yenə də ən yaxşı ssenari - tədarükün dayanmamasıdır", - deyə K.Nehammer əlavə edib.

# ATƏT-in nümayəndəsi şəhid jurnalistlərin yaxınları ilə görüşüb

**Bakıda səfərdə olan ATƏT-in media azadlığı üzrə nümayəndəsi Teresa Riberio şəhid jurnalistlərin yaxınları ilə görüşüb.**

"Şərq" xəbər verir ki, görüşdə şəhid jurnalistlər Məhərrəm İbrahimovun və Sirac Abışovun qardaşları Əsgər İbrahimov, Şirzad Abışov, Milli Qəhrəman, jurnalist Salatın Əsgərovanın oğlu Ceyhun Əsgərov iştirak ediblər.



Medianın İnkişafı Agentliyinin (MEDİA) Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli görüş iştirakçılarını Teresa Riberioya təqdim edərək deyib: "Çox maraqlıdır ki, şəhid jurnalistlərin bu görüşdə iştirak edən yaxınları da məhz bu peşənin sahibləridir və onların şərəfli yolunu davam etdirirlər".

"Dezinformasiyanın artması və onun media sahəsinə təsiri mövzusunda" ADA Universitetində keçirilən "dəyirmi masa" çərçivəsində baş tutan bu görüşdə "Report" informasiya agentliyinin redaktoru Əsgər İbrahimov Azərbaycanda söz və mətbuat azadlığından, media sahəsində qəbul olunan yeni qanunun əhəmiyyətindən söz açıb.

O, bir neçə azərbaycanlı jurnalistin erməni terrorunun qurbanı olduğunu xatırladaraq bu faktların dünya ictimaiyyətində Ermənistanın terroruçu dövlət olduğunu, onların dinc sakinləri, o cümlədən qələm sahiblərini həmişə hədəf seçdiklərini bildirib.

Teresa Riberio bu görüşün onda maraqlı təəssürat yaratdığını bildirib, münaqişə və müharibələr zamanı peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin hər zaman təhlükə ilə üzləşdiklərini vurğulayıb.

Sücayət

# Ölkələrimizin tarixi irsi birgə araşdırılacaq

## Azərbaycan və gürcü alimləri əməkdaşlıq edəcək

**"Azərbaycanla Gürcüstanın birgə tarixi irsinin araşdırılması üçün bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur".**

Bu sözləri Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov gürcüstanlı həmkarı İliya Darçiaşvili ilə keçirilən mətbuat konfransında deyib. Nazir bildirib ki, bunu vaxtından əvvəl elan etmək istəmirik. Ancaq çox maraqlı işlər və tədqiqatlar var. Hesab edirik ki, onların ərsəyə gəlməsi Azərbaycan-Gürcüstan diplomatik əlaqələrinin 30 illiyinə töhfə verəcək.



**Millət vəkili, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı "Şərq"ə açıqlamasında iki qonşu dövlət arasında həyata keçiriləcək layihənin son dərəcə əhəmiyyətli olduğunu deyib:**

"Azərbaycan və Gürcüstan dost, strateji müttəfiq ölkələrdir. Bizim münasibətlərimizin kökləri təbiidir. Bu köklər mehriban qonşuluq, ümumi maraqlar və ortaq tale ilə bağlıdır. Azərbaycan və Gürcüstan alimləri arasında çox geniş əlaqələr var. Bu əlaqələrin daha da genişləndirilməsində fayda görürəm. Alimlərimiz birgə layihələr işləyə bilər. Bunun üçün potensial var. Hesab edirəm ki, bir sıra kitabların birgə yazılmasında Azərbaycan və gürcü alimləri əməkdaşlıq edə bilər".

Şəymən

**Ermənistan paytaxtı İrəvanda etiraz aksiyalar keçirilir. Aksiyada Baş nazir Nikol Paşinyanın istefası tələbi irəli sürülür. Müxalifət onun hakimiyyətini Qarabağ məsələsində "yolverilməz güzəştlərə getməkdə" günahlandırır.**

N.Paşinyanın "fərsiz siyasəti" sayəsində Ermənistanın dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşdiyini iddia edirlər. Aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan sülh sazişi üzərində işləməyə razılaşıblar.



# Paşinyan qətiyyətli olmasa, devirəcəklər

## Baş nazirin əleyhdarları terror da törədə bilərlər

Bundan sonra N.Paşinyan parlament çıxışında bildirib ki, beynəlxalq ictimaiyyət onların "Qarabağın statusu" ilə bağlı tələbin həddini "aşağı salmağını" istəyib. Onun bu çıxışının ardınca ölkənin bəzi müxalif qüvvələri "oturaq aksiyaya" çağırışlar ediblər. Müxalifət mövcud iqtidarın "erməni xalqının təhlükəsizliyini təmininə, ölkənin suverenliyini müdafiə etməyə" qadir olmadığını söyləyir. Etiraz iştirakçıları Yerevanın müxtəlif yerlərində itaətsizlik hərəkətlərinə başlayıblar. "Paşinyan - satqın", "Paşinyan - Azərbaycan və Türkiyə maraqlarına xidmət edir", "Ayağa qalx, Ermənistan", "Nikol-türk" çağırışları ilə yürüşlər keçirir, şəhərin bir hissəsini o biri hissəsi ilə birləşdirən körpüləri, küçə və prospektləri bağlayıb nəqliyyatın hərəkətini məhdudlaşdırırlar.

> "Erməni lider proseslərin gedişatında geridə qalır. Əgər qətiyyətli addımlar atmasa, küçəni ram etməsə, başı ağrıya bilər"

**Ermənistandakı etirazlarla bağlı "Şərq"ə danışan politoloq Tofiq Abbasovun qənaətincə, Paşinyan hələ qətiyyətli addımlar atmayıb. Amma hər halda niyyəti var:**

"Ermənistan çıxış yolunun sülh müqaviləsində olduğunu anlayır. Çünki rəsmi İrəvanın böyük asılılığı həm Azərbaycan, həm də Türkiyədəndir. Hətta Azərbaycanın XİN başçısı Ceyhun Bayramovla ermənistanlı həmkarı ilə danışığı göstərir ki, indiki kabinet barışığın qaçılmazlığını başa düşür.

Erməni cəmiyyətinin "dəliqanlı" vəziyyətini nəzərə alaraq, prosesləri bilərəkdən ləngidirlər. Ölkələrinin daxilində "adamyeyən" situasiya mövcuddur. Birdən-birə barışığa razılıq verə bilməzlər.

Müxalif qüvvələr hakimiyyəti "damlamağa" səy göstərirlər. Paşinyanın hakimiyyətdən getməsi üçün aksiyalar keçirirlər. Onun yerini guya, layiqli siyasi qüvvə tutsun. Paşinyan proseslərin gedişatında geridə qalır. Əgər qətiyyətli addımlar atmasa, küçəni ram etməsə, onda Paşinyanın başı ağrıya bilər. Hətta hakimiyyəti itirməklə də nəticələnməsi mümkündür.

Ermənistan siyasi ənənəsində terrorun böyük rolu mövcuddur. Paşinyanın ətrafı terror da törədər. Ona görə o, vaxt itirmədən barışığa gəlirsə, ilk növbədə daxili sabitliyi yaratmalıdır. Digər qüvvələrdə Avropa İttifaqı, Şarl Mişel, Amerikanın ali rəhbərləri bilirlər ki, artıq Minsk qrupunun səhnədən getməsi labüddür.

"Status" məsələsi də əhəmiyyətsizdir.

Təkcə Qarabağda yaşayan bir yığın erməninin gələcəyi qalır. Bu da Azərbaycanın daxili işidir. Ermənistanda sağlam başla düşünən insanlar var. Onlar proseslərin və beynəlxalq hüququn Azərbaycanın yanında olduğunu anlayırlar. Paşinyan Azərbaycanla yaxınlaşmağa çalışır".

Aygün Tahir

# İsrail saatlarını Bakı vaxtı ilə tutuşdurur

## Bu ölkə Azərbaycan hesabına özünün iqtisadi potensialını gücləndirmək istəyir



**“İsrailin Maliyyə naziri Aviqdor Libermanın Azərbaycana gəlişi Cənubi Qafqazda yaranan postmünaqişə reallığında və Rusiya-Ukrayna müharibəsi kontekstində diqqət çəkir”.**

Bu barədə ”Şərq”ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Azərbaycan-İsrail əməkdaşlığı strateji müttəfiqlik səviyyəsinə qədəm qoyur. Onun sözlərinə görə, İsrail Azərbaycan hesabına özünün iqtisadi potensialını gücləndirmək istəyir: ”Liberman Azərbaycan-İsrail əlaqələrinin dinamikasının artmasında bəlli bir statusa malikdir, onun şəxsi və əvvəl tutduğu vəzifələr İsrailin öz proyeksiyasını Azərbaycan üzərinə salmasında xüsusi rol oynayıb. Əvvəllər xarici işlər naziri və müdafiə naziri kimi postları tutan cənab Liberman bu dəfə maliyyə naziri kimi Bakıya təşrif buyurur. Onun qarşısına Azərbaycanla əməkdaşlığı iqtisadi sferada gücləndirmək missiyası qoyulur. Libermanın Bakıya yol almamışdan öncə İsrail mətbuatında yayılan məlumatlara əsasən, İsrail Azərbaycandan buğda, neft və karbamidin tədarükü üçün müqavilələr imzalamağı iqtisadi gündəliyinə salıb. İsrail dövləti Rusiya-Ukrayna müharibəsinin iqtisadi sahəyə vurduğu ziyanların öz ölkəsinə təsirini dərindən analiz edir. Rusiya və Ukraynadan buğda tədarükünün dayanmasından sonra İsrail Libermanı başqa ölkələrdəki şəxsi əlaqələrindən istifadə edərək yeni iqtisadi müqavilələr imzalamaq üçün sahənin içərisinə salır. Azərbaycan neft-qaz kəməri sisteminin Türkiyə və Avropaya şaxələnməsi İsrail üçün də əlverişli alternativ formalaşdırır. Liberman enerji resurslarının idxalını artırmaq üçün saatlarını Bakı əqrəbləri ilə tutuşdurur. Yəqin ki, indi müzakirələr masasında həmin nəqlin marşrutu üzrə dəqiqləşdirmələr aparılır”.

**A.Kərimova görə, İsraildə Maliyyə Nazirliyi iqtisadi sahə üzrə ən həlledici və üstün statusa malik qurum olduğundan qurum ümumi iqtisadi siyasəti planlaşdırır və həyata keçirir**: ”Nazirlik İsrailin fiskal siyasəti üçün hədəflərin planlaşdırılması və müəyyən edilməsinə cavabdehdir. Bu mənada Libermanın yolunu Bakıya salması yuxarıda sadalanan istiqamətlər üzrə idxalı artırmaq və bunun maliyyə yükünü hesablamaqdan ibarətdir. Yəqin, indi Azərbaycandan idxal olunacaq malların qiyməti də müzakirə olunur. Böyük ehtimalla müqavilələr imzalanacaq və bununla İsrailin Azərbaycana xoşməramlı qarşılıq verəcəyi baş tutacaq. Azərbaycan hazırda özünün ordu göstəricilərini daha yüksəklərə qaldırmaq üçün ən müasir silahların alınmasını hərbi-siyasi hədəfləri sırasında saxlayır. Bu mənada mümkündür ki, Azərbaycan-İsrail hərbi-texniki əməkdaşlığına format veriləcək və yeni məzmun qazanacaq”.

**İsmayıl Qocayev**

**BMT-nin baş katibi Antonio Quterreş aprelin 26-da Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşüb. Kremlin məlumatına görə, tərəflər Ukrayna böhranını, o cümlədən Mariupol və ”Azovstal”da vəziyyəti müzakirə ediblər.**



# Bütün görüşlər nəticəsizdir

## Kreml Antonio Quterreşin hər iki xahişini rədd edib

Quterreş Xarici işlər naziri Sergey Lavrovla da görüşüb. Xatırladaq ki, sonuncu dəfə baş katib Moskvaya ötən ilin mayında gəlib. Budəfəki səfərindən əvvəl Quterreş Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla bir araya gəlib. BMT baş katibi Putinlə görüşdən sonra Ərdoğanla əlaqə saxlayıb və Kreml rəhbəri ilə aparılan müzakirələr barədə onu məlumatlandırıb.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, BMT baş katibi Antonio Quterreşin Rusiya Prezidenti Vladimir Putin və Xarici işlər naziri Sergey Lavrovla görüşü nəticəsiz qalıb.** Ekspertin sözlərinə görə, baş katibin Kreml rəhbərindən iki xahişi olub: ”Quterreş Putinə təklif edib ki, Rusiya Ukraynada işğalçı müharibəni dayandırsın. Eyni zamanda Mariupoldan mülki insanların çıxarılmasına şərait yaradılsın. Görünən odur ki, Kreml Antonio Quterreşin hər iki xahişini rədd edib. Baş katib Moskvadan əvvəl Ankarada Türkiyə lideri Rəcəb Təyyib Ərdoğanla görüşmüşdü. Tərəflər Rusiya-Ukrayna müharibəsinin dayandırılması ilə bağlı fikir mübadiləsi aparmışdılar. Bu faktın özü BMT-nin Türkiyənin Rusiya ilə Ukrayna arasında vasitəçilliyinə verdiyi müsbət qiymətə dəlalət edir. Buna baxmayaraq, Kreml Ankaranın təşəbbüslərini qulaqardına vurmaqda davam edir. Türkiyə rəsmiləri həftələrdir Kremlə təklif edirlər ki, Türkiyənin mülki gəmiləri Mariupol sakinlərini liman üzərindən təhlükəsiz yerə daşısın. Ancaq cavab yoxdur”.

**İsmayıl**

# “Azərsu" MEDİA ilə birgə jurnalistlərə təlim keçdi



**”Azərsu” Açıq Səhmdar Cəmiyyətinin 2021-2023-cü illər üzrə ”Kommunikasiya Strategiyası”nın Fəaliyyət Planına əsasən, media nümayəndələrinin içməli və tullantı su sektoru ilə bağlı bilik və təcrübələrinin artırılması məqsədilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə birgə media nümayəndələri üçün təlimlər keçirilib.**

”Şərq” xəbər verir ki, Təlim və İnnovasiyalar Mərkəzində təşkil olunan tədbirdə 40-dan artıq media orqanının nümayəndələri iştirak ediblər. Təlimdən əvvəl iştirakçılar Təlim və İnnovasiyalar Mərkəzi və mərkəzin təcrübə poliqonunda yaradılmış şəraitlə tanış olublar.

”Azərsu” ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı bildirib ki, təlimin keçirilməsində məqsəd son dövrlər müşahidə olunan iqlim dəyişiklikləri, su ehtiyatları və onlardan səmərəli istifadə, əhalinin içməli və tullantı su xidmətlərindən istifadəsinin yaxşılaşdırılması sahəsində ”Azərsu” ASC-nin həyata keçirdiyi tədbirlər barədə mətbuat nümayəndələrinin bilik və təcrübələrini artırmaq, onların bu sahədə ixtisaslaşmasına dəstək göstərməkdən ibarətdir.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli öz çıxışı zamanı kommunal sektorda, o cümlədən su təchizatı sahəsində jurnalistlərin ixtisaslaşmasının vacibliyindən danışıb. O bildirib ki, təlimlər kütləvi informasiya vasitələri nümayəndələrinin bu sahə üzrə biliklərinin artırılmasına və gələcək fəaliyyətlərində ictimaiyyətə dolğun informasiyanın çatdırılmasına kömək göstərəcək.

Təlimdən öncə ”Azərsu” ASC-nin fəaliyyəti ilə bağlı təqdimat keçirilib. ”Azərsu” ASC-nin Planlaşdırma və layihələndirmə departamentinin rəisi Bahadur Kəngərli ”Azərbaycanda həyata keçirilmiş içməli su layihələri və onların əhəmiyyəti”, Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli ”Media subyektlərində ixtisaslaşma və onun üstünlükləri”, Xəzər Universitetinin mərkəz rəhbəri Rövşən Abbasov ”İqlim dəyişikliklərinin Azərbaycanın su ehtiyatlarına təsiri və sudan səmərəli istifadə”, ”Sukanal” Elmi Tədqiqat və Layihə İnstitutunun direktor müavini Elnur Nəsirov ”İqlim dəyişikliklərinin içməli su mənbələrinin məhsuldarlığına təsiri”, Texnoloji proseslərə nəzarət, suyun təhlükəsizliyi və ekologiya şöbəsinin rəisi Cəmil Babayev ”Suyun keyfiyyəti insan sağlamlığı üçün əsas amillərdən biridir”, Elektron idarəetmə və müasir texnologiyalar departamentinin rəis müavini Cabbar Cabbarlı ”Sudan səmərəli istifadə, israfçılığın və qanunsuz qoşulmaların qarşısının alınması ilə bağlı görülən tədbirlər” mövzularında təqdimatla çıxış ediblər.

Tədbir zamanı mövzularla bağlı müzakirələr aparılıb, jurnalistlərin sualları cavablandırılıb.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

**Sücayət**

# Maskanın ləğv olunması yoluxma sayını artırmayacaq

## Koronavirus artıq epidemiya formasında deyil, mövsümi virus infeksiyası şəklində olacaq




**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Klüge bildirib ki, COVID-19 əleyhinə vurulan peyvəndlərin mövsümi xarakter alması çox effektiv bir həll olardı:**

”Koronavirus əleyhinə peyvənd mövsümi olması ilə bir doza vurulmaqla məsələnin həll olunması arzuolunandır. Lakin pandemiya davam etdiyindən hələ bu barədə düşünülmür. Ümumilikdə bu gün üçün hadisələrin gedişi yaxşıdır. Lakin yenə də xahiş edərdim ki, hər kəs öz sağlamlığı üçün peyvənd olunsun. Peyvənd olunanlar isə mütləq buster dozanı vurdursunlar”.

H.Klüge deyib ki, Azərbaycanda peyvəndlənmə göstəricisi olduqca yaxşı vəziyyətdədir. Peyvəndlərin və tibbi ləvazimatların digər dünya ölkələri ilə paylaşılması isə təqdirəlayiqdir: ”Buna görə ölkənizə təşəkkür edirəm. Çünki bu, qlobal həmrəyliyin möhkəmləndirilməsinə yönələn addımdır”.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında bildirib ki, mayın 1-dən maska qadağasının ləğv edilməsinin yoluxmaya təsiretmə ehtimalı yoxdur:** ”Artıq insanlarda kollektiv immunitet formalaşıb. Son azalma təbii şəkildə baş verib. Azalma həmişə olduğu kimi, karantin qaydalarının sərtləşdirilməsi hesabına yox, yumşaldılması fonunda baş verib. Ona görə də artıq maska qadağasının ləğv edilməsi yoluxma sayının yüksəlməsinə səbəb olmayacaq”.

İnfeksionist qeyd edib ki, peyvəndlərin mövsümi həyata keçirilməsi lazımlıdır: ”Çünki pandemiyanın bitməsi koronavirusun tamamilə həyatımızdan çıxması demək deyil. Artıq epidemiya formasında deyil, mövsümi virus infeksiyası şəklində olacaq. Yəni lokal şəkildə payız və qış fəsillərində yenidən yoluxmanın alovlanması gözlənilir. Koronavirus əleyhinə vaksin də qrip peyvəndi kimi olacaq. Yəni payız və qış aylarında bizə COVİD-19-a qarşı vaksin vurdurmaq zəruridir”.

**Sücayət Mehti**

**İsmayıl Qocayev**

**“Ukraynadakı vəziyyətə kənardan müdaxilə olsa, cavabımız sürətli olacaq”. Bu barədə Rusiya Prezidenti Vladimir Putin bildirib. Kreml rəhbəri Rusiyaya təhlükə yaradılacağı halda, opponentlərində olmayan silahlardan istifadə edəcəklərini bəyan edib. Lakin Putin Rusiyanın Ukrayna ilə danışıqlardan imtina etmədiyini, diplomatik yolla razılaşma əldə edilə biləcəyini**

“İndiki şərtlər daxilində Ukraynanın danışıqlara gedib, atəşkəs imzalaması yalnız o halda mümkün ola bilər ki, Rusiya müharibədən əvvəlki mövqeyinə çəkilsin”



# Putin uğur qazansa, dəhşət başlayacaq

## Avropa Ukraynaya dəstəyini ikiqat artırmalıdır

**vurğulayıb:**

”Hərbi əməliyyatların getməsinə baxmayaraq biz hesab edirik ki, diplomatik yolla razılaşma əldə edilə bilər. Biz danışıq aparırıq və bundan imtina etmirik”.

**AŞ PA-dan Rusiyaya qarşı qətnamə..**

Avropa Şurası Parlament Assambleyası ”Rusiyanın Ukraynaya qarşı davam edən təcavüzü: Avropa Şurasının rolu və cavabı” adlı qətnamə qəbul edib. Qətnamədə AŞ PA Ukrayna ilə həmrəylik nümayiş etdirib. Rusiyaya hücumları dayandırmaq üçün çağırış edilib. Bildirilib ki, Rusiyanın Ukraynaya hücumu Avropada İkinci Dünya müharibəsindən bəri ən dəhşətli humanitar böhrana səbəb olub. Qlobal idarəçilik üçün problem yaradıb. Enerji xərclərinin və ərzaq təhlükəsizliyinin kəskin artmasına gətirib çıxarıb. Qətnamədə beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Ukraynanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sarsılmaz dəstək bir daha təsdiqlənib.

**“Qərbin Ukraynaya silah tədarükü əhəmiyyətli dərəcədə artıb”**

Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Mixaylo Podolyak deyib ki, Qərbin Ukraynaya silah tədarükü əhəmiyyətli dərəcədə artıb. O xatırladıb ki, müharibənin əvvəlində Rusiyanın tələblərindən biri də Ukraynanın tam silahsızlaşdırılması olub: ”Dünyanın 40 müdafiə nazirinin dünənki əlamətdar görüşündən sonra Moskvaya çox pis xəbərim var: Qərbin Ukraynaya silah təchizatı həm sürət, həm həcm, həm də sadələşdirilmiş logistika baxımından əhəmiyyətli dərəcədə artıb”.

**“Ukrayna ordusu NATO silahlarına keçir”**

Ukrayna xarici işlər naziri Dmitro Kuleba bildirib ki, Ukrayna ordusu NATO silahlarına keçir: ”Müharibədə yeni mərhələ başlayıb. Biz heç kimin ağlına belə gətirməyən tamamilə yeni mərhələyə qədəm qoyduq. Yeni silahlarla bağlı Ukrayna və ABŞ prezidentləri arasında danışıqlar olub. Əvvəlcə haubitsalar gəlib, amma bu, yalnız başlanğıcdır, daha çox şey gələcək”,

İtaliya Prezidenti Sercio Mattarella deyib ki, Rusiyaya mümkün qədər çox ölkə tərəfindən sanksiyalar tətbiq edilməlidir: ”Biz əlimizdən gələn qədər Ukraynanın öz müstəqilliyini qoruması üçün humanitar, siyasi yardımlar göstərməliyik. Bütün bunların hamısı sülh danışıqlarına nail olmaq üçün edilməlidir”. O bildirib ki, İtaliya Ukraynanın təhlükəsizliyinin təminatçısı olmağa hazırdır və beynəlxalq vasitəçilərin sülh yolu ilə nizamlanması üzrə danışıqlara cəlb olunmasını zəruri hesab edir.

**“KTMT-yə üzv dövlətlər müharibədə iştirakdan imtina edir”**

Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi məlumat yayıb ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələr Ukraynaya qarşı müharibədə iştirak etmək istəyi nümayiş etdirmir. Məlumatda bildirilib ki, Rusiyanın təkidlərinə baxmayaraq, KTMT üzvləri ”Donetsk Xalq Respublikası” və ”Luqansk Xalq Respublikası” adlanan ərazilər də daxil olmaqla, öz ölkələrindən kənarda sülhməramlı əməliyyatların aparılması ilə bağlı qərar qəbul etmək istəmirlər. Vurğulanıb ki, qurum üzvləri milli kontingentlərinin məhdud şəkildə Rusiya və ya Belarus ərazisində yerləşdirilməsi imkanlarını nəzərdən keçirə bilər. Lakin bu, yalnız həmin ölkələrin Ukraynanın hücumuna məruz qalmasını rəsmi şəkildə bəyan etmələrindən sonra mümkün ola bilər.

**“Bir daha özümüzü heç vaxt təhlükəsiz hiss etməyəcəyik”**

Böyük Britaniyanın Xarici işlər naziri Liz Trass deyib ki, Rusiya müharibəsinə qarşı olan ölkələr Ukraynaya dəstəyi ikiqat artırmalı, xüsusən də Kiyevi daha çox ağır silahlarla təmin etməlidir. Trass bildirib ki, Vladimir Putinin qələbəsinin qarşısını almaq lazımdır: ”Əks halda o, müharibədən dünyada yeni təhlükəsizlik nizamının katalizatoru kimi istifadə edəcək. Putin uğur qazanarsa, Avropada daha da ağlasığmaz səfalət və bütün dünyada dəhşətli nəticələr olacaq. Bir daha özümüzü heç vaxt təhlükəsiz hiss etməyəcəyik. Ona görə də biz uzun yola hazır olmalıyıq və Ukraynaya dəstəyimizi ikiqat artırmalıyıq”.

**“ABŞ Putinin Kiyevlə diplomatik əməkdaşlığına inanmır”**

ABŞ dövlət katibi Entoni Blinken Vaşinqtonun Putinin Kiyevlə diplomatik əməkdaşlığına inanmadığını deyib. O, ABŞ-ın Ukraynaya silah tədarükünü sürətləndirdiyini vurğulayıb: ”Rusiya hökumətinin 2 ay əvvəl cəmi bir neçə günə ələ keçirə biləcəyini iddia etdiyi ərazilər hələ Ukraynadadır. Kiyev canlanır: insanlar küçələrdə yemək yeyir, skamyada oturur, gəzirlər. Ukraynalılar Kiyev uğrunda döyüşdə qalib gəlib. Biz bunu öz gözlərimizlə gördük”.

**“Ukrayna verdiyimiz silahlarla Rusiyadakı hədəfləri vura bilər”**

Böyük Britaniyanın Baş naziri Boris Conson bildirib ki, Ukraynaya verilən silahlarla Rusiyadakı hədəflərin vurulması mümkündür: ”Ukrayna Britaniyanın verdiyi silahlarla Rusiya ərazisindəki hədəfləri vura bilər. Ukraynanın özünü müdafiə etmək hüququ var. Biz böhranın Ukraynanın sərhədlərindən kənara çıxmasını istəmirik. Lakin dediyim kimi, ukraynalılar özlərini müdafiə edə bilərlər”. Daha əvvəl Böyük Britaniyanın Silahlı qüvvələr naziri Ceyms Hippi də bildirmişdi ki, Ukraynanın Rusiyaya hücumu legitimdir.

**“Situasiya gərgin olaraq qalır...”**

**Politoloq Məhəmməd Əsədullazadə ”Şərq”ə bildirib ki, Ukraynaya silah yardımı, xüsusilə NATO silahları ilə təchiz edilməsi Rusiyanın itkiləri ilə nəticələnir.** Avropa Birliyi də Rusiyaya sanksiyaları genişləndirib: ”NATO müdafiə nazirlərinin Almaniyada keçirilən görüşdə birbaşa Rusiyaya qarşı sərt addımların atılması qərarlaşdırıldı. Bu, Putini geri addım atmağa sövq edir. Müharibənin uzanması Ukraynanın əlini gücləndirir və Rusiyaya ciddi itkilər hesabına başa gəlir. İndiki şərtlər daxilində Ukraynanın danışıqlara gedib, atəşkəs imzalaması yalnız o halda mümkün ola bilər ki, Rusiya müharibədən əvvəlki mövqeyinə çəkilsin. Amma, bu da Ukraynanın maraqlarına cavab vermir. Müasir silahlarla təmin edilən Ukrayna ordusunun Donbassdakı separatizmə son qoyması üçün ən əlverişli məqamdır. Rusiya Krıma quru yolu əldə etdikdən sonra atəşkəsə getməkdə maraqlıdır. Situasiya gərgin olaraq qalır və indiki şəraitdə atəşkəs Ukraynanın maraqlarına cavab vermir”.

**İsmayıl Qocayev**

# İşığa doğru...

## AMEA-da islahatlar komissiyası yaradılmalıdır




### “Elmə aidiyyəti olmayanlar müxtəlif yollarla burada işə düzəlib”

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Əsas binasında akademiyanın 2021-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinə həsr olunan ümumi yığıncağı keçirilib. Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, AMEA-nın Rəyasət Heyətinin üzvləri, dövlət və hökumət rəsmiləri, deputatlar, akademiyanın həqiqi və müxbir üzvləri, rektorlar, eləcə də xaricdə yaşayan azərbaycanlı alimlər iştirak edirlər.**

Əvvəlcə qonaqlar Elm Gününə həsr edilən və akademiyanın elmi nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar. Qurumun prezidenti vəzifəsini icra edən akademik Arif Həşimov 2021-ci ilin elm sahəsində bir sıra hadisələrlə yadda qaldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bu il ümumi yığıncağın formatına müəyyən dəyişiklik edilib. Əvvəlki illərdən fərqli olaraq, hesabatlar Akademiyanın akademik-katibi tərəfindən deyil, bölmələrə rəhbərlik edən vitse-prezidentlər tərəfindən təqdim olunacaq: ”AMEA-nın elmi bölmələri, müəssisə və təşkilatları tərəfindən təqdim olunan təkliflər əsasında ”Elm günü”nə həsr olunmuş Tədbirlər planı hazırlanıb. Tədbirlər elmi fəaliyyətin cəmiyyətdə nüfuzunun gücləndirilməsi, elmin populyarlaşdırılması, alimlərin əməyinin qiymətləndirilməsi və s. istiqamətləri əhatə edir”.

#### ”Fəaliyyətini bitirən strukturlar yeniləri ilə əvəzlənməlidir”

Arif Həşimov vurğulayıb ki, Rəyasət Heyətinin tərkibi çoxsaylı bölmə və şöbələrdən ibarətdir və burada elmi işçilərin sayı üstünlük təşkil etməlidir: ”Adətən, AMEA-da və elmi qurumlarda elmi işçilərin sayı üstünlük təşkil etməlidir. Digər işçilər isə yardımçı funksiya yerinə yetirməlidir. Bununla bağlı, müəyyən qeyri-mütənasibliklər var. Lakin bu o demək deyil ki, şöbə və bölmələr birmənalı şəkildə ləğv olunmalıdır. Həmçinin elə institutlar var ki, orada texniki işçilərin sayı çox olmalıdır”. A.Həşimov onu da qeyd edib ki, fəaliyyətini bitirən strukturlar davamlı şəkildə yeniləri ilə əvəzlənməlidir: ”Ümumiyyətlə, istər Akademiyanın, istərsə də bu kimi digər qurumların strukturunda mütəmadi şəkildə yenilənmələr, dəyişikliklər aparılmalıdır. Yeni strukturlar yaradılmalıdır. Hansı ki, hər hansısa bir strukturlar öz funksiyalarını bitiribsə, onların əvəzinə yeni strukturlar yaradılmalıdır”.

#### ”Akademiyanın statusu yüksəldilməlidir”

AMEA-nın vitse-prezidenti Dilqəm Tağıyev deyib ki, dövlət başçısının tabeliyində Ali Elm Şurasının yaradılması məqsədəuyğundur. Onun sözlərinə görə, bütövlükdə elmə münasibət dəyişməli, onun gəlir gətirməsi üçün ciddi sərmayə qoyulmalıdır: ”Gənc və perspektivli fəlsəfə doktorları üçün tədqiqat təqaüdləri proqramları yaradılmalıdır. Gənc tədqiqatçıların sayının artırılması üçün yaşlı əməkdaşların pensiyaları artırılmalı və optimal yaş həddi tətbiq edilməlidir”.

#### ”AMEA-nın hüquqi statusu dağınıqdır”

AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev vurğulayıb ki, Akademiya dövlət büdcəsindən maliyyələşir. Amma bir sıra dövlət orqanlarına tətbiq olunan qanunlar və normativlər AMEA-ya tətbiq olunmur: ”Akademiyanın hüquqi statusu dağınıqdır. Əgər sözügedən qanunlar quruma tətbiq olunsaydı, nazirlik aparatlarında 70-ə yaxın elmi işçi olmasına baxmayaraq, bizim mərkəzi aparatda 400-ə yaxın işçi olmazdı”.

Rasim Əliquliyev həmçinin bildirib ki, AMEA-da kompleks islahatlarla bağlı xeyli təkliflər olub, amma ortada modern konsepsiya yoxdur, bu, ciddi qüsurdur: ”Bu barədə prezidentə müraciət edilməsi vacibdir. Təklif edirik ki, islahatlar komissiyası yaradılsın. Bunun dövlət başçısına təqdim olunması məqsədəuyğundur”.

#### ”Elmə aidiyyəti olmayanlar müxtəlif yollarla AMEA-da işə düzəlib”

Akademik Rasim Əliquliyev diqqətə çatdırıb ki, Nizamnamədə qeyd olunur ki, AMEA dövlət və ali elm təşkilatıdır. Mülkiyyəti dövlət mülkiyyətidir, dövlət büdcəsindən maliyyələşdirilir, yəni dövlət sektoruna aiddir: ”Əməyin ödənilməsi dövlət qulluğunda olduğu kimi olsaydı, istedadlı elmi işçilər, xüsusən də gənclər AMEA-dakı tədqiqat prosesindən uzaqlaşıb yüksək maaşlı işlərə getməzdilər. Sosial müdafiə mexanizmləri dövlət qulluğundakı kimi olsa idi, AMEA-da çalışan işçilər də könüllü olaraq təqaüdə gedərdilər, ömürlərinin sonuna kimi iş yerlərindən bərk yapışmazdılar. Gənc yaşlarından xarici ölkələrdə fəaliyyət göstərərək təqaüdə çıxan həmkarlarımız 70-80 yaşlarında AMEA-da işə düzəlməyə cəhd etməzdilər. 65 yaşında elmə aidiyyəti olmayan insanlar dövlət qulluğundan təqaüdə çıxıb müxtəlif yollarla quruma işə düzəlməzdi”.

#### ”Elmlər doktorlarının sadəcə 26 nəfəri 60 yaşdan aşağıdır”

R.Əliquliyevin sözlərinə görə, AMEA-nın kadr potensialının gəncləşdirilməsi istiqamətində işlər aparılmalıdır. O bildirib ki, bu gün AMEA-nın elmlər doktorlarının sadəcə 26 nəfərinin yaşı 60-dan aşağıdır: ”Ümumilikdə Akademiyada 1 828 əməkdaşı var. Onlardan 948-i elmi işçi, 353-ü fəlsəfə doktoru, 165-i elmlər doktorudur. Əmək haqlarında ciddi fərqlər olduğu üçün 10-20 il institutlarda çalışan əməkdaşlarımız yavaş-yavaş ya təhsil müəssisələrinə, ya da digər sahələrə yönəlir. Onların yerinə isə təəssüf ki, yeni kadrlar gəlmir. Bu sahədə işlər aparılmalıdır”.
Vitse-prezident qeyd edib ki, son bir neçə ildir əməkdaşların ”WoS” beynəlxalq elmi bazasına çıxışı bağlanıb: ”Elmi bazalarda elmi əsərlər dərc etdiyinə görə müəlliflərə mükafat verilmir. Əvvəl verilirdi. Həmçinin digər zəruri xərclər, o cümlədən tərcümə, dərc haqqı ödənilmir. Elmi jurnalların dərci üçün təşkilati-texniki və maliyyə dəstəyi göstərilmir”.

#### AMEA-da Qarabağ bölməsinin yaradılması təklif edilib

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Qarabağ bölməsinin yaradılmasını təklif edib. Xatırladıb ki, Akademiyada Naxçıvan və Gəncə bölmələri mövcuddur: ”Bu bölmədə Qarabağla bağlı tədqiqatların aparılması məqsədəuyğun olardı”. O deyib ki, Nizami Gəncəvinin milli kimliyi haqqında bütün dünyada gedən mübahisəyə son qoyulub: ”Bu, Azərbaycan nizamişünaslığının çox böyük nailiyyətidir. Onun əsərləri ciddi azərbaycançılıq meyarları istiqamətində öyrənilir və öyrənilməkdədir. Hansı ki, 2021-ci il ərzində Nizami haqqında 45 əsər nəşr olunub. Bütün bunlar Azərbaycanı nizamişünaslığın mərkəzi kimi bütün dünyaya sübut edir”.

#### ”Azərbaycan ənənəvi biologiya və aqrar elmlərdə qonşu ölkələrdən geri qalır”

Akademik İradə Hüseynova bildirib ki, elmi fəaliyyətlə bağlı reytinqlərə əsasən Azərbaycan ənənəvi biologiya və aqrar elmlərdə qonşu ölkələrdən geri qalır. O bildirib ki, lakin biokimya, molekulyar biologiya və genetika elmləri üzrə isə təqribən Gürcüstanla eyni mövqedə, Ermənistandan isə xeyli irəlidədir: ”Beləliklə, Azərbaycan bu sahələr üzrə 2017-ci ildə 126, 2020-ci ildən isə 97-ci yerdə qərarlaşıb”.

#### ”Akademiya gömrüklə bağlı əziyyət çəkir”

Akademik Akif Əlizadə cihazlara görə tutulan gömrük rüsumlarından şikayətlənib. O bildirib ki, Azərbaycan ərazisində canlı aləmin inkişafını özündə əks etdirən yeni bir atlasın yaradılması nəzərdə tutulub. Onun sözlərinə görə, bu atlas Geologiya və Geofizika İnstitutu və Təbiət Tarixi Muzeyinin ortaq layihəsi olacaq.

Akif Əlizadə Təbiət Tarixi Muzeyinin hazırkı vəziyyətinə də toxunub: ”O muzeyin dəyəri böyükdür, amma təəssüf ki, vəziyyəti acınacaqlıdır. Hesab edirəm ki, Təbiət Tarixi Muzeyinin keyfiyyətli bir məkana ehtiyacı var”. A.Əlizadə deyib ki, yeni Elm strategiyası qəbul olunmalıdır: ”2009-2015-ci ili özündə ehtiva edən Elm strategiyasından sonra yenidən yeni strategiyanın qəbuluna ehtiyac var. Bu strategiya qəbul olunmasa, akademiya gömrüklə bağlı əziyyət çəkir. Çünki hazırda adi bir cizahin ölkəyə daxil olması üçün onun qiymətinin 40 faizinə yaxın rüsum tutulur”.

**İsmayıl**



# 250 günlük taxıl ehtiyatımız var

## Natiq Cəfərli: “Azərbaycanda qıtlıq yaranacağını düşünmürəm”

**Ukrayna-Rusiya müharibəsinin getdiyi dönəmdə dünyada ərzaq böhranının baş verəcəyinə dair müxtəlif iddialar irəli sürülür.**

Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elman Nəsirov deyib ki, dünyada taxılın ixracında birinci yerdə Rusiya, beşinci yerdə Ukrayna dayanır.

Deputatın fikrincə, bu gün bu iki dövlət müharibə aparır və müharibənin sonu görünmür:

”Belə reallıqda ərzaq qıtlığı təhlükəsi realdır. Prezident İlham Əliyevin müşavirədə dediyi kimi, Azərbaycan 75 faiz ərzaq taxılını başqa ölkələrdən idxal etmək məcburiyyətindədir. Bu gün Rusiyadan 780 min ton taxıl alırıq. Yəni bir ölkədən taxıl idxalında bu qədər çox asılılığın olması qənaətbəxş hal deyildir. Qazaxıstan isə taxıl ixracına kvota tətbiq edir. Bu, bizim taxıl istehsalçılarını çox ciddi düşündürməlidir. Taxıl məhsulu istehsal edən sahibkarlara subsidiyaların həcmi artırılmalıdır. Elə edilməlidir ki, xalqımız belə gözlənilməz situasiyalarda çörəklə imtahana çəkilməsin”.

**Böhran ehtimalı ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, Azərbaycanın təqribən 75 faiz taxıl istehlakı xarici idxaldan asılıdır:**
”Rusiya əsas taxıl idxal etdiyimiz ölkədir. Dünyada taxılın bahalaşması, ümumiyyətlə, ərzaq buğdasının qiymətlərindəki artım, təchizata dair müəyyən kəsintilərin yaranması problemə çevrilib. Sırf Azərbaycana dair ciddi qıtlıq yaradacağını düşünmürəm. Bizim ölkənin təqribən 250 günlük taxıl ehtiyatı var.

İlin əvvəlində Qazaxıstanla yeni müqavilələr bağlanıb. Qazaxıstandan taxıl alışı dəfələrlə artıb. Qazaxıstandan alınan taxılın artımı Rusiyadan azalacaq idxalın yerinin doldurulmasına kifayət edəcək. Hindistanla da danışıqlar gedir. Ola bilər ki, taxıl alışından ötrü müqavilə imzalansın”.

**Aygün Tahir**



# Peşə təhsilinə yaşıl işıq

## Atılan addımlar təqdirəlayiqdir

**Millət vəkili Etibar Əliyev Milli Məclisin iclasında təklif verib.**

**O, peşə təhsili alanlara hərbi xidmətə çağırışdan möhlət verilməsini söyləyib.**

Deputat bildirib ki, peşə məktəblərində təhsil alan şəxsləri tədris prosesinin ortasında hərbi xidmətə çağırırlar: ”Onların böyük bir hissəsi hərbi xidmətdən geri qayıtdıqdan sonra təhsilini davam etdirmirlər.

*Ancaq bu məktəbləri bitirənlərin işlə təminat məsələsi də diqqətdə saxlanılmalıdır*

Təhsil Nazirliyi yanında Peşə Agentliyi yarandıqdan sonra peşə təhsilinin inkişafına müəyyən təkan verdi. Lakin bir müddət sonra durğunluq yarandı. Altı il ərzində Agentliyin 5 direktoru dəyişib. Bu, idarəetmədə ciddi boşluqların yaranmasına səbəb olub. Bu il 11-ci sinifdə olan 92 min 673 şagirddən 23 min 650 nəfər 0-50 arasında bal toplayıb. Ölkədə savadsızlıq tüğyan edir. Fərz edək bu şəxslər peşə məktəbinə üz tutdular, onda orada necə təhsil alacaqlar?”.

Milli Məclisin sədri Sahibə Qafarova deputatın Azərbaycanda savadsızlığın tüğyan etməsinə dair fikri ilə razılaşmayıb. Spikerin qənaətincə, təhsil sahəsində bizim kifayət qədər uğurlarımız var.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan təhsil eksperti Elçin Əfəndinin fikrincə, peşə təhsili istiqamətində mühüm islahatlar keçirilməlidir:**

”Son zamanlar bu istiqamətdə müvafiq tapşırıqlar verilir. Peşə təhsili alanların təqaüdlə təmin olunması qanun layihəsi ilə təsdiqləndi. Möhlət hüququnun verilməsi vacib şərtlərdəndir. Həmçinin işlə təminat məsələsi də diqqətdə saxlanılmalıdır.

Bəzi ixtisaslar üzrə subbakalavr dərəcəsi verilir, onların ali təhsil müəssisələrinə müsahibə zamanı imtahan vermədən qəbuluna dair razılıq var. Bu, bəzi ixtisaslarda yox, bir çoxlarında tətbiq olunmalıdır.

Qardaş ölkə Türkiyə ilə peşə təhsilinə dair müvafiq anlaşmalar var. Orda gerçəkləşən təhsil sisteminin Azərbaycan peşə məktəblərində tətbiqi nəzərdə tutulur”.

**Aygün Tahir**

# Bəzi məmurlar Qarabağdan para qazanmaq istəyirlər

## Abadlıq işlərində çalışmaq istəyən, ora can atan gənclərdən diplom tələb etmək süründürməçiliyin növbəti təzahürüdür

**Millət vəkili Tural Gəncəliyev hazırda Qarabağda aparılan quruculuq işlərində çalışmaq istəyənlərə diplom tələbinin irəli sürülməsini doğru hesab etmir. Milli Məclisin ötən iclasında deputat bu məsələyə toxunub.**

Hazırda azad edilən ərazilərdə quruculuq, bərpa işlərinin çox sürətlə həyata keçirildiyini qeyd edən T.Gəncəliyev bildirib ki, quruculuq işlərində peşə təhsilli gənclərə çox ehtiyac olacaq: ”İşəgötürənlər tələb kimi ali təhsil diplomu tələbi qoyurlar. İşəgötürənlər peşələrlə bağlı ali təhsil diplomunun olmasını şərt kimi qoymasınlar. Bu, ”Peşə təhsili haqqında” qanuna da uyğun deyil”.

**Millət vəkilinin qaldırdığı problemlə bağlı fikirlərini ”Şərq”lə bölüşən əslən Qarabağ bölgəsindən olan həmkarımız, Jurnalist Araşdırmaları Mərkəzinin sədri, ”Yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə Qarabağdakı quruculuq işlərində çalışmaq istəyənlərin qarşısına ali təhsil diplomu tələbinin qoyulması absurddur:**

- Bizim kənddəki evimizi kəndin bənnası tikmişdi, atamın, qohumların iştirakı ilə. Hər kəndin özünün bənnası, daş yonanı, malakeşi... vardı. O bənna evimizi elə tikmişdi ki, 30 ilə yaxın müddətdə erməni vandalları hətta onu tam dağıda bilmədi. O bənnaların ali təhsili yox idi, diplomları yox idi. Amma işlərinin ustası idilər. Eləcə də digər peşələrin sahibləri. Nəhayət ki, doğma torpaqlarımız işğaldan azad edildikdən sonra bəzi məmurların yenə də öz ənənəvi ampluasında qalması ancaq təəssüf doğurur. Qarabağdakı quruculuqda, tikintidə, abadlıq işlərində çalışmaq istəyən, ora can atan gənclərdən diplom tələb etmək süründürməçiliyin növbəti təzahürüdür. Alın təriylə çalışaraq pul qazanmaq istəyənlərdən diplom tələb edirlərsə, deməli, nəsə umurlar. Umacaqları var. Bu, ayıbdır. Daşı-daş üstə qoymağı bacaranların Qarabağa yolunu açmaqdan, əksinə, qarşılarına daş itələyirlər. Bu məni çox məyus edir. Heç olmasa, Qarabağ məsələsində məmurlar ambisiyalarından əl çəksinlər. Çirkin niyyətləri ilə gözəl Qarabağımızı gözdən salmasınlar.



*"Əksinə, gərək elan edilsin ki, kim nə iş bacarır, buyurub gəlsin. Xalq olaraq, millət olaraq birlikdə Qarabağımızı tikək"*

**S.Verdizadə qeyd etdi ki, Qarabağdakı quruculuq işlərində ali təhsilli memarlara, mühəndislərə əlbəttə ehtiyac var. Lakin bu o demək deyil ki, hansısa peşəyə sahib şəxslər kənarda qalmalıdır:**

- Əksinə, gərək elan edilsin ki, kim nə iş bacarır, buyurub gəlsin. Xalq olaraq, millət olaraq birlikdə Qarabağımızı tikək. Quruculuq işlərində bəlkə də ali təhsil diplomlularından daha çox peşə təhsili almışlara ehtiyac var. Çünki peşə təhsili həm də təcrübə keçmək imkanı verir. Təcrübəli usta bəzən diplomlu, amma təcrübə keçməmiş mühəndisdən daha faydalı olur.

**Məlahət Rzayeva**

# Qarabağın iqtisadi potensialı çox yüksəkdir

## İşğaldan azad edilən ərazilərdə kənd təsərrüfatını inkişaf etdirmək prioritet olmalıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**

**Hazırda regional iqtisadi siyasətin əsas hədəfləri bölgələrdə iqtisadi aktivliyin artırılması, regionlara daxili və xarici sərmayələrin cəlb olunması, texnologiyaların tətbiq edilməsi, istehsal və ixrac imkanlarının artırılmasıdır. Ölkə başçısı İlham Əliyev hakimiyyətə gəldiyi gündən etibarən bu hədəfləri müəyyən edərək, yeni dövlət dəstək proqramının olacağını elan etdi.**

Bu baxımdan, regionların sosial-iqtisadi inkişafına dair 2004-2008, 2008-2014 və 2014-2018-ci illər üzrə dövlət proqramları ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb edir. Bu proqramlar regionlarda sahibkarlığın inkişafı üçün münbit şəraitin yaradılması, yeni müəssisələrin və iş yerlərinin açılması və bunun nəticəsi olaraq, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında, eləcə də yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayıb. Hazırda icra olunan dövlət proqramı da bölgələrin sürətli inkişafını özündə ehtiva edir. Bu gün regionlarımızın inkişafını şərtləndirən əsas amil odur ki, Azərbaycanda regionların inkişafına ölkənin davamlı həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi baxılır. Məhz bu yanaşmanın nəticəsində regionların inkişafı üzrə ayrıca dövlət proqramları hazırlanaraq icra edilir. Vətən müharibəsində əldə olunan qələbə ilə Azərbaycanda yeni inkişaf mərhələsi başlanıb. İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verməkdədir. Kifayət qədər böyük olan bu ərazilərin iqtisadi potensialı da genişdir. Bölgələrdə bərpa və quruculuq işlərinin sürətlə davam etməsi regionların sosial-iqtisadi inkişafında yeni mərhələnin başlandığını göstərir. Ötən gün Sabirabad rayonunun Nəsimi kəndində Qubadlıdan olan arıçıların doğma yaylaqlara yola salınması ilə bağlı tədbir keçirilib. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin rəsmiləri, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı Ofisinin rəhbəri Fatih Yılmaz, Türkiyə səfirliyinin kənd təsərrüfatı üzrə müşaviri Hakan Qələndər, Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov, Peşəkar Arıçılar Birliyinin rəhbəri Elxan Ələkbərov və fermerlər iştirak ediblər. Qeyd olunub ki, ötən il Kəlbəcər və Laçın yaylaqlarına arıçılıq və qoyunçuluq təsərrüfatlarının köçürülməsinə dair həyata keçirilmiş pilot layihə uğurla nəticələnib. Layihənin yekun nəticələri təhlil olunduqdan sonra bu ildən arıçılıq təsərrüfatlarının köç edəcəyi yaylaqların siyahısına Qubadlı rayonunun yaylaqları da əlavə olunub. Bununla da 30 ilə yaxın fasilədən sonra Qubadlıdan olan arıçılar öz təsərrüfatlarını doğma yaylaqlara köçürmək imkanı əldə ediblər. Öz təsərrüfatlarını yaylaqlara köçürmək istəyən fermerlərin müraciətləri əsasında Kənd Təsərrüfatı Nazirliyində müvafiq siyahı hazırlanıb. Əvvəlcə fermerlər Minatəmizləmə Agentliyinin təşkil etdiyi təlimlərə cəlb olunublar. Təlimlərdə fermerlərə mina və partlamamış sursatla çirklənmiş ərazilərdə davranış qaydaları izah olunub. Fermerlərdən köç edəcəkləri dislokasiya məntəqələrində təlimata uyğun davranacaqlarına dair iltizamnamə alınıb.

TİKA-nın Bakı Ofisinin rəhbəri Fatih Yılmaz iki ölkə arasında əlaqələrin daim inkişaf etdiyini deyərək, təmsil etdiyi qurumun Azərbaycanda bir çox sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində də layihələr həyata keçirdiyini deyib. Bu layihələr çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində arıçılıq təsərrüfatlarına texniki dəstək göstərilib. ”Dağ Arıçıları” İctimai Birliyi TİKA tərəfindən xüsusi konteynerlərlə təchiz olunub, birliyin məhsullarının qablaşdırılmasına köməklik göstərilib. Fatih Yılmaz Qubadlı arıçıları üçün xüsusi əhəmiyyət kəsb edən bu gündə arıçıların sevincini bölüşməkdən məmnunluq duyduğunu deyib, arıçılara hər zaman dəstək olacaqlarını vurğulayıb. Türkiyə səfirliyinin kənd təsərrüfatı üzrə müşaviri Hakan Qələndər iki ölkə arasında aqrar sahədə əməkdaşlığın bütün istiqamətlərdə inkişaf etdiyini deyib. Azərbaycanla Türkiyə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair imzalanmış memorandum və sazişləri xatırladan müşavir nəzərdə tutulan bütün istiqamətlər üzrə birgə fəaliyyətin davam etdiyini deyib. Hakan Qələndər Qubadlı arıçılarının öz təsərrüfatlarını 30 illik fasilədən sonra doğma yaylaqlara köçürməsi münasibətilə təbrik edib.



Daha sonra tədbir iştirakçıları Qubadlı rayonundan olan arıçıların təsərrüfatlarına baş çəkib, arı ailələrinin köçə hazırlıq prosesini izləyiblər. Bu il Qubadlı rayonuna 38 arıçılıq təsərrüfatının köçürülmsəi nəzərdə tutulub. Ümumilikdə Qubadlı yaylaqlarına 2207 arı ailəsi köçürüləcək. Arı ailələri Qubadlı şəhər mərkəzinin ətrafında, Qazyan, Muradxanlı, Xanlıq, Mollu, Hal, Mahmudlu, Bəxtiyarlı, Tatar, Qaraçalı və Zilanlı kəndlərində yerləşdiriləcək.

**Regionların iqtisadi inkişafı ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-ekspert Pərviz Heydərov deyib ki, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı olduqca yüksəkdir. Ekspert bildirib ki, həmin ərazilərin ölkə iqtisadiyyatına verəcəyi ən böyük səmərə məhz kənd təsərrüfatı sahəsində olacaq:** ”Ona görə ki, işğaldan azad olunan Qarabağ regionun həm iqlim şəraiti, həm əlverişli coğrafi mövqedə yerləşməsi sarıdan, təbii rerursları baxımından, bol su ehtiyatlarının olması nöqteyi-nəzərindən potensialı çox böyükdür. Digər regionlarla müqayisədə olduqca yüksəkdir. 44 günlük müharibə başa çatdıqdan dərhal sonra Azərbaycan hökuməti bölgədə yenidənqurma və bərpa işlərinə başladı. Ötən müddət ərzində işlər yüksək səviyyədə həyata keçirilib və hazırda sürətlə davam etməkdədir. Keçən ilin dövlət büdcəsindən Qarabağın dirçəldilməsi üçün 2.2 milyard manat vəsait ayrılmışdı. Bu il də eyni məbləğdə vəsait ayrılıb ki, işlər fasiləsiz getsin. İşğaldan azad edilmiş bir neçə rayonda taxıl əkilib. Həmin ərazilərdə yetişdirilən taxıl yerli bazarın ödənilməsində mühüm rol oynayacaq. Ermənistan tərəfi Qarabağı işğalda saxlayanda taxıl tələbatının əsas hissəsini məhz bölgə hesabına təmin edirdi. Əlbəttə, Ermənistanın taxıl fondunun tələbatı ilə Azərbaycan arasında fərq çoxdur. Bununla belə işğaldan azad edilmiş ərazilərdə əkinçiliklə məşğul olsaq, daxili tələbatımızın ödənilməsi istiqamətində mühüm irəliləyiş əldə edərik”.

**P.Heydərov vurğulayıb ki, Qarabağda ilk növbədə kənd təsərrüfatının inkişafı üçün zəruri addımların atılması, fermer təsərrüfatlarının yaradılması, aqrar-sənaye komplekslərinin təşkili prioritet sayılır:** ”Qarabağda infrastrukturun sürətli şəkildə qurulması, regionda münasib şəraitin yaradılması, kommunikasiyaların açılması və görülən digər işlər bölgənin ölkə iqtisadiyyatına inteqrasiya etməsi, töhfə verməsi məqsədi daşıyır. Hesab edirəm ki, yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzur regionu Azərbaycanda kənd təsərrüfatı istehsalı sahəsində önəmli rol oynamağa başlayacaq. Bir daha vurğulayıram ki, regionun potensialı böyükdür. Hökumətin strategiyası özünü doğruldacaq”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Faydasını görəcəyik

## Avropa İttifaqı Azərbaycanda aqrar sektorun inkişafına xüsusi dəstək verən qurumlardandır



**Azərbaycanda kənd inkişaf proqramı pilot olaraq Lənkəran və İsmayıllıda tətbiq ediləcək. Bu barədə Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA)nın Layihələr və Proqramlar şöbəsinin müdiri Fərid Əmirov deyib.**

O bildirib ki, Avropa İttifaqının (Aİ) Azərbaycanda mövcud kənd təsərrüfatı yerlərinin inkişafı ilə bağlı qiymətləndirilməsi hesabatı hazırlanıb. Burada Avropa İttifaqının kənd yerlərinin inkişaf proqramlarının çərçivə elementlərinin Azərbaycanda necə istifadə ediləcəyi göstərilib. Pilot kənd yerləri olaraq Lənkəran və İsmayıllı seçilib. Kənd inkişaf tədbirlərinə aqroturizm, kiçik fermerlər arasında əməkdaşlıq, kənd yerləri üçün əsas xidmətlər, təsərrüfatların məsləhət xidmətləri, kəndlərdə texniki baxımın bərpası və mədəni irsin yaxşılaşdırılması aiddir. O əlavə edib ki, bu tədbirlər çərçivəsində əsas hədəf kiçik və orta fermerlik təsərrüfatlarının inkişafına nail olmaq və onların iqtisadiyyata töhfəsini artırmaqdır.

**Millət vəkili Vüqar Bayramov ”Şərq”ə açıqlamasında deyib ki, bütövlükdə Avropa İttifaqı Azərbaycanda aqrar sektorun inkişafına xüsusi dəstək verən qurumlardandır.** Deputat vurğulayıb ki, Aİ-nin bu istiqamətdə bir sıra layihələri var: ”Kənd təsərrüfatının inkişaf etdirilməsi, kəndlərin müasir tələb və çağırışlara uyğunlaşdırılması prioritet məsələdir. Pilot rayon və kəndlərin seçilməsi də məhz bu təcrübənin istifadə olunması, xüsusən Avropada tətbiq edilən təcrübənin daha geniş istifadəsi baxımından vacibdir. Həmçinin, bölgələrin tərəqqisi fonunda mühüm addımdır. Mərkəz və bölgələr, rayon və kənd arasında fərqi minimuma endirmək nöqteyi-nəzərindən zəruri sayılır. Layihələrin sayında artımlar var. Sadəcə beynəlxalq təşkilatların deyil, eyni zamanda Azərbaycan hökumətinin də dəstəyi ilə kənd təsərrüfatı sahəsinə önəmli layihələr reallaşdırılır. Qısa müddət ərzində bunun faydasını görəcəyimizə şübhə olmasın”.

**İsmayıl Qocayev**

# Əmək haqqı çox aşağıdır

## Gənclər elmlə məşğul olmağa can atmırlar

**Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağında AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev deyib ki, əməkhaqları az olduğuna görə, alimlər AMEA-nı tərk edir. Akademik həmçinin əlavə edib ki, bu gün AMEA-nın elmlər doktorlarının sadəcə 26 nəfərinin yaşı 60-dan aşağıdır:**

”Ümumilikdə AMEA-nın 1 828 əməkdaşı var. Onlardan 948-i elmi işçi, 353-ü fəlsəfə doktoru, 165-i elmlər doktorudur. Əmək haqlarında ciddi fərqlər olduğu üçün 10-20 il institutlarda çalışan əməkdaşlarımız yavaş-yavaş ya təhsil müəssisələrinə, ya da digər sahələrə yönəlir. Onların yerinə isə təəssüf ki, yeni kadrlar gəlmir. Bu sahədə işlər aparılmalıdır”.

Rasim Əliquliyevun sözlərinə görə, son bir neçə ildir AMEA əməkdaşlarının WoS beynəlxalq elmi bazasına çıxışı bağlanıb: ”Elmi bazalarda elmi əsərlər dərc etdiyinə görə müəlliflərə mükafat verilmir. Əvvəl verilirdi. Həmçinin digər zəruri xərclər, o cümlədən tərcümə, dərc haqqı ödənilmir. Elmi jurnalların dərci üçün təşkilati-texniki və maliyyə dəstəyi göstərilmir”.



*“Bu gün Azərbaycanda 30 yaşdan aşağı bir nəfər də olsun elmlər doktoru yoxdur”*

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında bildirib ki, AMEA-nın kadr potensialının gəncləşdirilməsi istiqamətində işlər aparılmalıdır. Ekspert vurğulayıb ki, Akademiyanın özündə gənclərin elmə gəlməsinə maneələr var:**

”Gənclərin elmə gəlməsinə mane olan səbəblərdən ilki elmə görə verilən əməkhaqlarının çox aşağı olmasıdır. Təbii ki, bu qədər yüksək bilik və bacarıqlara malik şəxslər elmdə qalmağa üstünlük vermir, digər sahələrdə daha yüksək əmək haqqı ala biləcəklərinə görə elmdən gedirlər.

Diqqət etsəniz, son illər ərzində gənclərin bakalavr pilləsini bitirdikdən sonra elmdə qalması ciddi şəkildə aşağı düşüb. Bu gün Azərbaycanda 30 yaşdan aşağı bir nəfər də olsun elmlər doktoru yoxdur. Çünki AMEA-nın nəzdindəki müəyyən institutların rəhbərləri, əməkdaşları ciddi şəkildə gənclərin elmlə məşğul olmasına mane olurlar. Bu gün Azərbaycan alimi dünya elmində çox da ciddi qəbul olunmur”.

**Şəymən**

# İndiyədək işləyənlərə şamil olunmayacaq

## Rusiyaya çörək qazanmağa gedən soydaşlarımız bundan sonra pensiya ala biləcəklər

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının 20-ci iclası çərçivəsində ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Müqavilə” imzalanıb.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Trend-ə verilən məlumata görə, sənədi hər iki ölkənin baş nazir müavinləri, Komissiyanın həmsədrləri Şahin Mustafayev və Aleksey Overçuk imzalayıblar. Xarici ölkələrdə əmək miqrantları kimi fəaliyyət göstərən Azərbaycan vətəndaşlarının gələcək pensiya və sosial sığortalanma üzrə digər hüquqlarının tanınmasını təmin etmək məqsədilə həmin ölkələrlə müqavilələrin bağlanması prioritet fəaliyyət istiqamətlərindən biridir. Yeni imzalanan ”Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Müqavilə” iki ölkə arasında pensiya təminatı sahəsində əlaqələri tənzimləyir. Sənəd Azərbaycan və Rusiya vətəndaşlarının bu dövlətlərin ərazisində qazanmış olduqları pensiya və sosial sığorta üzrə digər hüquqlarının tanınması, qorunması mexanizmlərini müəyyən edir.

İmzalanan müqavilə Rusiyada gəncliyindən qocalanadək çalışan soydaşlarımıza nə vəd edir? Ucsuz-bucaqsız Rusiya çöllərində ömrünü başa vurmaq üzrə olan soydaşlarımızın Vətənə qayıtmaq istəklərinin qarşısı bir çox hallarda məhz pensiya təminatının olmaması səbəbindən kəsilib. Rusiya hökuməti digər dövlətlərin vətəndaşlarına pensiya hüququ tanımayıb. Bizimkilər də işləyib-işləyib, günlük qazanc əldə edib. Əlbəttə, aralarında Rusiyada qazandığı pula ev, mülk alanlar, bəlli sərvətə sahiblənənlər də var. Lakin bunların heç biri təqaüd yaşına çatdıqda pensiya təminatı vermir. Yaşı 60-ı haqlamış soydaşlarımızın nə Rusiyada, nə də Vətəndə qocalıqları üçün heç bir məbləğ toplanmadığı məlum olur. İmzalanan yeni müqavilədən bu insanlar faydalana biləcəkmi?

**Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov ”Şərq”ə açıqlamasında imzalanan müqavilənin müsbət olduğunu, lakin imzalandığı zamandan sonrakı dövrü əhatə edəcəyini dedi:**

- 1999-cu ildə Rusiya Federasiyası ilə Azərbaycan arasında belə bir müqavilə imzalanmışdı. O zaman Azərbaycan parlamenti bu sənədi ratifikasiya etdi. Lakin Rusiya Duması etmədi. Ona görə də sənəd qüvvədən düşmüş hesab edilir. Əgər o zaman Rusiya Duması da sənədi ratifikasiya etsəydi, Rusiyada işləyən soydaşlarımızın 1999-cu ildən üzü bəri sığorta stajı olacaqdı, Vətənə döndükdə pensiya almaq hüquqları tanınacaqdı. Amma olmadı. İndi bu müqavilə imzalanıb, orada hansı maddələr var, dəqiq nələr nəzərdə tutulur, hələ bilinmir. İlk baxışda müsbət təsir bağışlayır. Çünki qeyd edildiyinə görə, əməkçi miqrant kimi çalışanların sosial sığorta stajı, pensiya hüququnu təmin edəcək. Lakin hər hansı qanunun geriyə qüvvəsi olmur. Bu müqavilə imzalanıbsa, o, müqavilə imzalanan və təsdiqlənən zamandan etibarən qüvvəyə minəcək və imzalandığı zamandan sonrakı dövrü əhatə edəcək. Bu o deməkdir ki, buvaxtadək, hələ sovet vaxtından Rusiyaya gedib orada çalışan, yaşayan, amma Rusiya vətəndaşı olmayan soydaşlarımız pensiya ala bilməyəcək. Çünki indiyədək onların adına hər hansı sığorta yığımı aparılmayıb. Sosial sığorta stajları hesablanmayıb.

**S.Məmmədov qeyd etdi ki, Azərbaycanda vəziyyət fərqlidir:**

- Azərbaycanda əcnəbi işçilərdən sığorta yığımı aparılır, miqrantlardan vəsait tutulur. Bunun üçün də dövlətlər arasında müvafiq müqavilələr olmalıdır. Hansı dövlətlə ikitərəfli müqavilə varsa, o ölkənin vətəndaşları problemlə üzləşmir. Amma Rusiyada bildiyim qədər, indiyədək belə olmayıb. Bəlkə bu müqavilə imzalandıqdan sonra yığım aparılacaq. Soydaşlarımız bundan sonra sosial sığorta yığımı etsələr, hesablarına toplanacaq, buna uyğun da onlara pensiya təyin ediləcək. Amma buvaxtadək çalışanlarla bağlı vəziyyət qəlizdir. İnanmıram ki, bu müqavilə indiyədək çalışanlara da şamil edilsin. Rusiyada işləyənlər bundan sonra çalışdıqları iş yerində sığorta stajının hesablanmasına çalışmalıdırlar. Bunu da sahibkarlar etməlidir. Amma məsələ burasındadır ki, sahibkarlar da vergidən yayınmaq üçün çalışanlarını çox zaman qeydiyyata almır, yəni sənədsiz-sübutsuz işlədir. Ona görə də insanlar pensiya yaşına çatdıqda çətinliklə üzləşir, təqaüd ala bilmirlər.

**Məlahət Rzayeva**

# Bakı yuxarıya deyil, yanlara doğru genişlənməlidir

## Müasir binalar paytaxtın mərkəzi hissəsində Bakının memarlıq üslubuna xələl gətirir



**Bakı şəhərində qəzalı vəziyyətdə olan, öz resursunu başa vurmuş çoxmənzilli yaşayış binalarının inventarizasiyası və bu binalarda yaşayan sakinlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi məqsədilə müvafiq komissiya yaradılıb.**

Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumata görə, icra hakimiyyəti başçısının müvafiq Sərəncamına əsasən yaradılan komissiyanın tərkibinə şəhər və paytaxt rayonları icra hakimiyyətlərinin məsul nümayəndələri daxil edilib. Komissiyaya Bakı şəhərinin ərazisində yaşayış üçün təhlükəli olan yaşayış binalarının inventarizasiyasının aparılması və bununla bağlı təkliflərin hazırlanmasının təmin edilməsi tapşırılıb. Sərəncamda Bakı şəhərinin Rayon İcra Hakimiyyətləri başçılarının balans sahibindən asılı olmayaraq qəzalı binalarda yaşayan sakinlərin təhlükəsizliyinə görə şəxsən məsuliyyət daşıdıqları xüsusi olaraq vurğulanıb. Artıq Komissiya üzvləri rayonlar üzrə inventarizasiya işlərinə başlayıblar.

İstismar müddəti başa çatmış binaların sökülməsi vacibdir. Amma yenə də "amma"lar ortaya çıxır. Məsələ bundadır ki, qəzalı, istismar müddəti bitmiş, təhlükəli elan edilərək sökülən hər 5 və ya 7-9 mərtəbəli köhnə binanın yerində, çoxmərtəbəli yaşayış binaları tikilir. Bu binalarda mənzillərin sayı, əvvəlki binadan dəfələrlə çox olur. Binaların 1-2 mərtəbələri adətən market, mağaza, müxtəlif iaşə obyektlərinə, bəzən uşaq bağçası, tədris kursları, klinikalara icarəyə verilir. Səbəb məlumdur. Tikinti aparan şirkət təbii ki, mənfəətini güdür. Paytaxtda ərazilərin kvadrat metrinin necə baha olduğu da sirr deyil. Ərazidə tikinti aparan sahibkar əlbəttə gəlir əldə etmək istəyir. Daha çox mənzil daha çox satış və daha artıq qazanc deməkdir. Üstəlik icarəyə verilən obyektlərdən də gəlir əldə edilir. Bəs ziyan çəkən tərəf hansıdır? Təbii ki, Bakı şəhəri! Şəhərin memarlıq üslubu, ümumi ansambl. Bitmədi, yenə var; həmçinin şəhər infrastrukturu. Bu da bir həqiqətdir ki, (həm də çox acı həqiqət) şəhərin nə istilik, nə su, xüsusən də kanalizasiya sistemi sürətli urbanizasiya ilə ayaqlaşa bilmir. Vaxtında bu problemlər həll edilməyib, hələ də edilmir. Yağış bir az artıq yağdımı, şəhərin necə iflic olduğunu hamımız görürük. Küçələrdəki su ötürücülərin yağış suyunu daşımağa gücü yetmir. Yağış suları gölməçələnib dəryaya dönüşür az qala. Yeni tikilən hər bina, necə deyərlər, özünə bab, yeni kanalizasiya şəbəkəsinə qoşulmur,

### *İstismar müddəti başa çatmış binaların sökülməsi vacibdir. Amma yenə də "amma"lar ortaya çıxır*

əvvəlki - köhnədənqalma, istismar müddətini başa vurmuş (bu ifadə son zamanlar dəbdi - M.R.) ümumi kanalizasiya şəbəkəsinə qoşulur. Nəticə də bəllidir. Köhnə xətlər çirkab sularını daşıya bilmir. Daha bitmədi; köhnə binadakı, deyək ki, 200 sakinin yerini yeni binada 1000 sakin tutursa, bu, 5 qat sıxlıq deməkdir. Bu sıxlığa küçə də dözməlidir, yol infrastrukturu da, ictimai nəqliyyat, poliklinika, məktəb də. Sakinlərin, satış, iaşə obyektlərinin hesabına çalışanların sayı artır, amma yeni məktəb binası, poliklinika, xəstəxana tikilmir axı. Əksinə səkilər, yaşıllıq sahələri daralır, heç oksigen də yetmir. Yeni binalar əraziyə əlavə yükdən başqa nə verir? Nəzərə alsaq ki, qəzalı binalar əsasən şəhərin mərkəzi hissələrindədir, bu ərazilərdə hər zaman sıxlıq olub. Nə deyişib ki, indi 5 mərtəbələrin yerində 18-20 mərtəbəli bina tikilir? Məsələ sakinlərin təhlükəsizliyidirsə, 5 mərtəbənin yerində yeni 5 mərtəbə tikilsin. Sərf etmir, əlbəttə. O zaman buyursunlar, şəhərdən bir qədər kənara, daha geniş sahələrə çıxsınlar. Şəhəri daha da yükləməsinlər.

> *"Qəzalı binalarla, istismar müddəti bitmiş binalar ayrı-ayrı qruplaşdırılmalı, hansının hansı mərhələdə olduğu dəqiqləşməli, buna müvafiq də ya sökülməsi, ya da təmir-bərpa, möhkəmləndirmə işlərinin aparılmasına qərar verilməlidir"*

**"Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında təkliflərini səsləndirdi:**

- Binaların inventarizasiya ilə bağlı komissiya yaradıldığı barədə məlumatlıyam. Mənim təklifim budur ki, binaların dəqiq monitorinqi aparılsın. Hansı bina hansı vəziyyətdədir, dəqiq müəyyənləşsin. Bina haqqında "qəzalıdır", deyib keçmək olmaz. Qəza vəziyyətinin də bir neçə mərhələsi var. Birinci mərhələ, ikinci mərhələ. Bina qəzalı vəziyyətin hansı mərhələsindədir, bu, bilinməlidir. Bəlkə elə vəziyyətdədir ki, binanın sökülməsinə ehtiyac yoxdur, təmir, bərpa etmək, möhkəmləndirmə işləri aparmaq olar. Buna qalsa, gərək tarixi binaların hamısı sökülsün, çünki "istismar müddətini başa vurub", "qəzalıdır". Amma dövlətimiz tarixi binaları qoruyur, bərpa edir. Bundan belə anlaşılmasın ki, mən sovet illərində tikilmiş binaları tarixi abidə sayıram. Xeyr. Sadəcə, bu binalar paytaxtımızın müəyyən hissəsində ümumi memarlıq ansamblını təşkil edir. Uzun illərdir biz deyirik ki, şəhər yuxarıya doğru deyil, yanlara genişlənməlidir. "Yuxarıya doğru inkişaf" şəhərdə sıxlığı artırır, tıxacların daha da artmasına səbəb olur. Basırıq yaradır. Tərpənmək olmur. Ən vacibi, müasir binalar paytaxtın mərkəzi hissəsində Bakının memarlıq üslubuna xələl gətirir. Bakının əsl simasına zərər vurur, tarixiliyi silib-süpürür. Avropa şəhərlərində köhnə binaların yanında, onlara bitişik yeni, müasir binaların tikintisinə icazə verilmir. Bizdə isə təəssüf ki, uzun illər bu məsələyə səhlənkar yanaşıldı. Amma cənab Prezident artıq bu cür tikintilərə qadağa qoyub. Çıxışlarında da vurğulayır ki, Bakının tarixi görkəmi qorunmalıdır. Kimsə demir ki, qəzalı, istismar müddəti başa çatmış bina olduğu kimi qalsın, kimsə ona əl dəyməsin. Sadəcə, işlər düzgün aparılmalıdır. Bu işdə məmur sözü deyil, memar sözü keçərli olmalıdır.

**V.Tofiqli qeyd etdi ki, qəza vəziyyətində olan bina ilə istismar müddətini başa vurmuş binalar fərqləndirilməlidir, çünki bu iki vəziyyət arasında fərq var. Qəzalı binalarla, istismar müddəti bitmiş binalar ayrı-ayrı qruplaşdırılmalı, hansının hansı mərhələdə olduğu dəqiqləşməli, buna müvafiq də ya sökülməsi, ya da təmir-bərpa, möhkəmləndirmə işlərinin aparılmasına qərar verilməlidir:**

- Sakinlərin təhlükəsizliyi hər şeydən önəmlidir. Möhkəmləndirmə, təmir hesabına binanın ömrü uzanmayacaqsa, ona vəsait xərcləməyinə dəyməz. Lakin hansı bina ki, təmir-bərpa işləri sayəsində hələ daha bir neçə il sakinlərə xidmət göstərə bilər, həmin binalara toxunmasalar yaxşıdı. Bəzən binaları elə formada təmir edirlər ki, etməsələr ondan yaxşıdı. Bakıxanov küçəsi ilə R.Behbudov və "Azadlıq prospekti" ilə Ceyhun Hacıbəyli küçələrinin kəsişməsində H.Abutalıbovun zamanında bir binanı guya ki, təmir etdilər. Əksinə, pis günə qoydular. Binanı o qədər yükləməyə ehtiyac yox idi. Söküntü və tikintidə mütləq memarların və şəhərsalma mütəxəssislərinin rəyi dinlənməlidir. Bütün tikintilər Baş Plana uyğun aparılmalıdır.

**Məlahət Rzayeva**



## Heç bir həkim pasiyentinin zərər görməsini istəməz

### Doğum zamanı ölüm hallarına xüsusilə rayon xəstəxanalarında tez-tez rast gəlirik

**Azərbaycanda doğuş zamanı körpə ölüb. Hadisə Sumqayıt şəhəri 2 saylı doğum evində qeydə alınıb. Şəhər sakini 32 yaşlı Elnarə Qurbanova xəstəxananın doğum şöbəsinə yerləşdirilib. Onun körpəsi doğuş zamanı ölüb.**

Faktla bağlı araşdırma aparılır. Çox təəssüf ki, az qala hər gün bədbəxt hadisələr şahid oluruq. Bəzən həkim məsuliyyətsizliyi də, pasiyent etinasızlığı da müşahidə edilir. İnsanlar həkimləri günahlandırır, xəstələrə biganə yanaşdığını deyirlər. Həkimlər isə pasiyentlərin vaxtlı-vaxtında müayinələrə gəlmədiyini söyləyirlər. Günah hər kimdə olsa da, nəticədə bir canın dünyaya göz açmamış həyatı sonlanır.

**Ginekoloq Rəşad Sultan "Şərq"ə açıqlamasında bildirib ki, doğuş zamanı körpənin ölümü müxtəlif səbəblərdən ola bilər:**

"Uşağın hər hansı qüsuru, probleminin mövcudluğu da mümkündür. Bu da ölüm səbəblərinə daxildir. Belə olduğu halda təbii ki, nə ananın, nə də həkimin günahı olar. Doğuşun gedişində nəsə qeyri-normallıq olarsa və müdaxilə edilməzsə, onda həkim günahkar sayılar. Hər bir pasiyentin tibbi sənədləri var. Müasir xəstəxanalarda həmin rəsmi kağızda xəstənin doğuş tarixi, doğumun gedişatı qeyd olunur. Doğuş zamanı körpənin ürək döyüntüləri yoxlanılır".

**Mama-ginekoloq Ləman Əliyeva da əlavə edib ki, doğum zamanı ölüm hallarına xüsusilə də rayon xəstəxanalarında tez-tez rast gəlirik:**

"Həkim xəstələrə laqeyd yanaşmır. Bəzən pasiyent həkimini dəyişə də bilir. Başqa həkimin müayinələrinə üz tutur. Amma ümumiyyətlə, həkimə getməyən xəstələrə nadir hallarda rast gəlmək olar. Əsasən dövlət xəstəxanalarında, ucqar rayonlarda belə situasiyalara tez-tez rast gəlinir. Təbii ki, heç bir həkim pasiyentinə zərər gəlməsini istəməz. Ananın və ya uşağın ölümü qadının hamiləlikdən əvvəlki somatik xəstəliklərində, boylu dövründə baş verən xəstəliklərində, dölün özünün inkişaf qüsurları kimi zamanlarda baş verə bilir".

Həkim pasiyentlərə tövsiyə edir ki, hər ay gecikdirmədən ginekoloq yoxlamalarına getmək vacibdir: "Skrininq müayinələri həkimin dediyi vaxtında olmalıdır. Xəstələr kifayət qədər məlumatlı olmalıdır ki, doktor onları çağırmasa belə, özləri müayinə zamanlarını bilməlidirlər. Həkimin çox xəstəsi var. Bir ay ərzində bir xəstəni düşünə bilməz. Xəstələr özü məsuliyyətli olmalıdır. Elə hamilə pasiyentlərim var ki, hər ayın eyni günündə qəbulumda olurlar. Bir gün belə gecikdirmirlər. Bütün xəstələrin belə etməsi arzuolunandır".

**Sücayət Mehti**

# Sevgisiz qalan cocuqlar...

## Uşaq intiharlarının birdən-birə artmasının səbəbləri öyrənilməlidir

**Bakıda 8 yaşlı uşaq özünü asıb. Hadisə paytaxtın Nəsimi rayonu Naxçıvani küçəsi ev 36-da qeydə alınıb. İntihar edənin azyaşlı olduğu bildirilir.**

**İntihar edən İran vətəndaşıdır və onun 8 yaşı var. Belə ki, 2014-cü il təvəllüdlü Ruin Tən Nəmin Kənan İləc yaşadığı evdə özünü asıb.**

8 yaşlı uşağın nədən belə bir addım atması hələlik məlum deyil.

Faktla bağlı Nəsimi Rayon Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

8 yaşlı uşaq özünü niyə assın? Bu yaşda adam intiharın nə demək olduğunu dərk edirmi?

Ekspertlərin fikrincə, 8 yaşlı bir uşağın böyük adam kimi kəndirdən ilgək düzəldib onu boynuna keçirməsi nə fiziki, nə də psixoloji baxımdan mümkün deyil.

**Psixoloq Könül Telmanqızının "Şərq"ə verdiyi açıqlamaya görə, 8 yaşlı uşağın şüuru bilərəkdən intihar edəcək və özünü asacaq səviyyədə deyil. Hüquq-mühafizə orqanları hadisəni dərindən araşdırmalıdır. Hansı tərəfdən baxsaq azyaşlı uşağın özünü iplə asması inandırıcı deyil:**

"Bəli, bu yaşlardakı uşaqlar sinif yoldaşları ilə aralarında yaşanan hər hansı bir mübahisədən sonra psixoloji travma ala, özünə qapana bilər. Mənə müraciət edən pasiyentlər fonunda da deyə bilərəm ki, son zamanlar məktəblərdə uşaqların bir-birinə qarşı aqressiv və yaşlarına uyğun olmayan münasibət sərgiləməsi faktları çoxalıb. Bilmirəm ailələrdən qaynaqlanır, yoxsa mühit korlanıb.

Valideynlərə tövsiyə edirəm ki, uşağı onun problemlərini başa düşməyə, probleminin həllinə kömək etməyə hazır olduqlarına inandırsınlar. Valideynlər indiki zamanda uşaqlarına daha yaxın olmalı, onların problemləriylə maraqlanmalı, qapalı olmalarına imkan verməməli, övladları ilə dostlaşmalıdırlar. Uşaqların yetişdirilməsi çətin və kompleks bir işdir. Bu məsələdə valideynlərin üzərinə böyük məsuliyyət düşür. Adətən diqqət çəkmək, daim sevilmək istəyən uşaqlar intihara meyilli olur. Onlar düşünür ki, bəlkə nəsə olsa, ölsə, hər kəs onun haqqında danışacaq, hər kəs onu dinləyəcək. Amma bu da yetkinlik yaşında olan uşaqlar üçün keçərlidir. Əgər 8 yaşlı uşaq cinayət hadisəsinin qurbanı deyil, intiharın qurbanıdırsa, bu zaman valideynlər daha diqqətli olmalıdır. Uşağın son günlər hərəkət və davranışlarına əsasən intihar səbəbini tapmaq olar. Daxili sıxıntısı olan uşaq evdə bunu mütləq büruzə verir və diqqətli valideyn bunu hiss edə bilir. Ancaq araşdırma heç bir problem olmadığını sübut edirsə, problemi evin içində və ya valideyn münasibətində axtarmaq lazımdır".



### *Əks halda, bu, daha pis və ciddi tendensiyalara gətirib çıxara bilər*

Psixoloqun sözlərinə görə, 8 yaşlı uşağın şüur altında intihar düşüncəsi formalaşmır. Özünü öldürmək fikirləri o yaşda uşaq psixologiyası üçün yad bir anlayışdır: "Sadəcə olaraq bu yaşda olan uşaqlar izlədiyi filmlərin, intiharla bağlı baxdığı video-roliklərin, kompüter oyunlarının təsirinə düşə bilər və özünü oradakı qəhrəmanlara bənzətmək məqsədilə həyata keçirə bilər. Bunu isə özünü öldürmək yox, sadəcə, oyun məqsədi ilə edə bilər. Amma konkret olaraq 8 yaşlı uşaqlar ekrandan izləsə belə fiziki baxımdan özünü iplə asa bilməz. İntihar planı qurmaq, ipi təşkil edib özünü asmaq bu yaş üçün heç cür inandırıcı deyil. Ən azı bunun üçün uşağın 12-13 yaşı olmalıdır ki, onun şüuru bu səviyyəyə qalxsın.

Ona görə, bu hadisəyə birmənalı münasibət bildirməkdə çətinlik çəkirəm. Hər nə qədər 8 yaşındakı uşaq sinif yoldaşı ilə arasındakı münasibətdən təsirlənsə belə heç vaxt gedib özünü öldürməz. Ümumiyyətlə, 8 yaşlı uşağın intihara əl atması çox nadir hallarda rast gəlinən bir hadisədir. 8 yaşında uşaq hələ dünyanı və ölümü dərk edə bilmir".

**Psixoloq Azad İsazadənin sözlərinə görə, yetkinlik yaşına çatmamış uşaqların intihar etməsi ilə bağlı ən ciddi məsələ sözügedən problemin başvermə səbəblərini araşdıran heç bir qurumun olmamasıdır:** "Sözsüz ki, intiharın səbəbləri fərdlərin yaş qrupundan asılı olaraq fərqlənir. Lakin Azərbaycanda birdən-birə yeniyetmə uşaqların intiharlarının artma səbəbləri ciddi şəkildə araşdırılmalıdır, əks halda, bu, daha pis və ciddi tendensiyalara gətirib çıxara bilər".

**A.İsazadə uşaq intiharlarının səbəbləri ilə polisdən başqa hər hansı bir qurumun məşğul olmadığını deyib:** "Əslində bu problemlə bağlı sosioloqlar, psixoloqlar, müəllimlər və xüsusi institutlar ciddi şəkildə məşğul olmalıdır. İntiharların başvermə səbəbləri intihar edən şəxsin regionlarda, kənd və şəhərdə yaşamasından, insanların hansı yaşda olmasından asılı olaraq fərqlənir. Deyilən amillər ciddi şəkildə araşdırılmalı olduğu halda, bununla bağlı heç kəs maraqlanmır".

Psixoloq onu da bildirib ki, 18 yaşına qədər uşaqlar adətən maksimalist olurlar və onlar üçün orta rəng yoxdur: "Onlar üçün hər şey ya yaxşıdır, ya da ki, pisdir. Hər şey onlar üçün pis olan kimi dərhal ümidlərini itirirlər və radikal hərəkətlərə əl atırlar".

**Şəymən**

**Elan**

Quliyeva Mehriban Əfsər qızına məxsus Abşeron rayonu, Xırdalan şəhəri, AAAF park yaşayış kompleksi, 19 saylı küçə, blok B, 5-ci mərtəbə, mənzil 22, 75.7 kv.m sahəsi olan evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun i müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1185



## Unikal körpü tikilib

Əsas çərçivə poladdan hazırlanıb

**Vyetnamın Dananq şəhərindən bir qədər aralıda, Ba Na Hills kurortunda insan əli şəklində hazırlanmış sütunlarla dəstəklənən unikal körpü tikilib.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, körpü dəniz səviyyəsindən 1414 metr yüksəklikdə yerləşir və bunun sayəsində inanılmaz gözəllik mənzərələri açılır.

"TA Landşaft Arxitektura" şirkəti tərəfindən layihələndirilən qurğunun uzunluğu 150 metrdir. Əsas çərçivə poladdan hazırlanıb, nəhəng əllər isə dekorativ elementdir. Körpü həm də kurorta gələnlərin ziyarət yerinə çevrilib.

## 118 yaşlı rahibə dünyanın ən yaşlı insanı oldu

"Ginnesin Rekordlar Kitabı" faktı təsdiqləyib



**"Ginnesin Rekordlar Kitabı" fransız rahibə 118 yaşı olan Lüsil Randonu dünyanın ən yaşlı insanı kimi təsdiqləyib.**

Oxu.az xəbər verir ki, qadın 1904-cü il fevralın 11-də doğulub. 1944-cü ildə o, katolik rahibəsi olub və Andre bacı adını götürüb. Dünyanın ən yaşlı sakini hazırda qocalar evində yaşayır və əlil arabasında hərəkət edir. Qadın eşitmə qabiliyyətini qismən itirib, lakin öz sözlərinə görə, beyni hələ də aydın çalışır.

"Onlar məni səhər yeddidə oyandırırlar, səhər yeməyi verirlər. Sonra kiçik işlərlə məşğul olduğum masaya oturdurlar", - deyə Randon həyatı haqqında danışıb. Qocalar evinin işçiləri bildiriblər ki, hələ də ona hər gün bir qədəh şərab verirlər.

*Qeyd edək ki, Randon dünyanın ən yaşlı insanı titulunu yapon Keyn Tanakanın ölümündən sonra alıb. Tanaka aprelin 25-də, ömrünün 119 yaş 107 günündə vəfat edib.*

## Rusiyanın məşhur bankiri Ukraynanın müdafiəsinə qoşulur



**Rusiyanın "Qazprombank"ın vitse-prezidenti İqor Volobuev Ukraynanın müdafiəsinə qoşulmaq arzusunu bildirib.**

**Lent.az xəbər verir ki, o, bu barədə "The Insider" nəşrinə müsahibəsində qeyd edib. Onun sözlərinə görə, əslən ukraynalıdır və Sumı vilayətinin Oxtırka şəhərində anadan olub.**

## 51 yaşlı qadın illərdir evdən çıxmır

O, yadplanetlilər tərəfindən oğurlanacağından qorxur

**İngiltərə sakini olan qadın yadplanetlilər tərəfindən oğurlanacağından qorxduğu üçün evdən çıxmağa cəsarət etmir.**

**Oxu.az xəbər verir ki, 51 yaşlı Saşa Kristi ilk dəfə UNO-nu (Uçan Naməlum Obyekt) uşaq vaxtı gördüyünü, lakin ən parlaq və aydın halda bu uçan obyektlə 1997-ci ildə rastlaşdığını deyir. Onun sözlərinə görə, ailəsi ilə birlikdə səyahət edərkən anidən böyük kosmik gəmi və onun yanından qaçıb keçən yadplanetli fiquru görüb.**



**"Oğlum mənə dedi ki, onun ayağına nəsə toxundu, ancaq mən kosmik gəminin parlaq alovlarına baxırdım və nə baş verdiyini anlamağa çalışırdım", - deyə qadın yaşadıqlarını xatırlayıb.**

**Bundan əlavə, o iddia edir ki, ona nəyinsə toxunduğunu şəxsən hiss edib və onu çox dəhşətli bir qorxu hissi bürüyüb. Bu zaman hətta uşaqlarını da unudaraq qaçmağa başlayıb.**

**"Panika içində, tam bir isterik korluq içində, haraya getdiyimi görmədən evə doğru qaçırdım", - deyə o əlavə edib.**

**Bu hadisədən sonra Kristi çox qorxub və bu səbəbdən də onda evdən çıxma fobiyası yaranıb. O qorxur ki, əgər evdən çıxarsa, ilk uyğun fürsətdə yadplanetlilər onu oğurlayacaqlar.**

**"Bu məndə narahatlıq yaradır və hər dəfə evdən çıxmaq məcburiyyətində qalanda əsəb hissləri keçirirəm", - deyə o etiraf edib.**

## İsveçrədə uçan yaxta dizayn olundu



**İsveçrədə uçan yaxta dizayn olunub. Yaxta həm havada, həm də suda hərəkət edir.**

**Bakupost.az xəbər verir ki, 50 knot sürətə çatan zeplin təxmini 90 min 800 fit hündürlüyə çıxa biləcəyi açıqlanıb. Yaxtanın içində hovuz, idman zalı, hətta helikopter meydançası da var. Şirkət artıq sifariş aldıqlarını açıqlayıb. Bildirilib ki, ilk təslimat 2026-cı ilin sonlarında olacaq.**



# Möcüzədir

Bu ölkə 7 min 641 ada üzərindədir

**Filippin dünyanın ən böyük ikinci adalar qrupuna aid (birinci yerdə 17 min adayla İndoneziyadır), möcüzəli, cazibədar ölkədir. "Şərq" "Milliyet.com"a istinadən Filippinin möcüzələrini oxuculara təqdim edir.**



Dünyanın ən uzun yeraltı çayı - Puerta Princesa məhz Filippindədir. Bu çay St.Paul sıra dağlarının dərinliklərindən axır. Çayın keçdiyi ərazi Milli Parkdır. Çay dağların altıyla 24 kilometr məsafədə uzanır. Yeraltı çay turistlərin marağına səbəb olur və Filippinə səfər edənlər bu yeraltı çay boyu gəzməyincə ölkəni tərk etmirlər. Çay həmçinin UNESCO-nun Dünya Mirası siyahısına daxildir. Filippinin başqa ölkərlərdən fərqli flora və faunası var. Məsələn, məşhur Filippin qartalı donuz, ilan, yarasa, hətta meymun da ovlayır. Filippin qartalı dünyanın ən güclü və nadir quşlarından hesab edilir. Bu qartalı öldürməyə görə 12 il həbs cəzası var. Dünyada məşhur olan "Yo-Yo" oyuncağının müəllifliyi də filippinli iş adamı Pedro Edralin Floresə məxsusdur. Yo-yo Filippin dilində "geri dön" deməkdir. Bu, dünyanın hər yerində geniş yayılmış ipilə bir-birinə bağlanmış fırlanan iki diskdən ibarət oyuncaqdır. Tanıyanlar bilir. Filippin son 50 ildə dünyanın ən böyük vulkan püskürməsinə sahiblik edir. 1991-ci ilin 15 iyununda Filippində Pinatubo Dağında vulkan püskürüb. Nəticədə Hind okeanına tonlarla vulkanik kül tökülüb. Filippinin məşhur yeməyi isə soya sousu, sirkə, sarımsaq, dəfnə yarpağı və qara bibərlə buxarda və ya suda bişmiş (yağsız) bişmiş toyuq ətindən ibarət "adobo" adlı xörəkdir.

**Məlahət Rzayeva**







# Onillik quraqlıq

Qazonlar dəbdəbəyə çevrilib

**Çilinin paytaxtı Santyaqoda şəhəri sudan istifadənin məhdudlaşdırılması ilə bağlı təxirəsalınmaz tədbirləri qəbul etməyə məcbur edən onillik quraqlıq fonunda otluq, qazonlar dəbdəbəyə çevrilib.**

Azərtac xəbər verir ki, yerli hakimiyyət orqanları və landşaft dizaynerləri gözəl qazonları səhra florası (kaktus, baobab, arqaniya, kaperslər) ilə əvəz ediblər. Yolların və magistralların yaxınlığında damcı suvarma üsulu ilə az su istehlak edən bitkilərin əkilməsi planlaşdırılır. Bu, ənənəvi yaşıllaşdırma ilə müqayisədə təxminən 90 faiz suya qənaət edir.

Həyətyanı sahələrin sahibləri qazonsuz rəngarəng kol və çiçəklərdən istifadə edirlər.

Şəhər də bölünüb. Paytaxtın zəngin rayonlarında daha kasıb rayonlardan fərqli olaraq daha çox yaşıl çəmənlik və ağaclı xiyabanlar var.

Paytaxtın yaşıl sahələrinə cavabdeh olan Valentina Veqanın sözlərinə görə, quraqlıq Çiliyə yayılır və suya qənaət etmək üçün şəhərlərin landşaft dizaynında əsaslı dəyişikliklər edilməlidir.

## Həcc ziyarətinə velosipedlə yollandı

Nur Əhməd 4 700 kilometr yol qət etməli olacaq

**Əfqanıstanın Qəzni şəhərində yaşayan Nur Əhməd adlı kişi Həcc ziyarətinə velosipedlə yollanmaq qərarına gəlib.**

Oxu.az xəbər verir ki, 45 yaşlı əfqanıstanlı yaşadığı şəhərdən Məkkəyə qədər təxminən 4 700 kilometr yol qət etməli olacaq.

Nur Əhməd iki ölkənin ərazisindən keçərək (İran, İraq) Səudiyyə Ərəbistanına daxil olacaq.

*Qeyd edək ki, 2022-ci ildə Həcc ziyarəti iyulun 7-12-si aralığına təsadüf edəcək.*




## Süd qutusunda partlayıcı...

Rus əsgərlər fərqli metodlara "baş vurur"

**Ukraynanın Rusiya ordusu tərəfindən mühasirədə saxlanan Xerson şəhərində rus hərbçiləri "humanitar" yardım paylayıb. Ahıl bir qadın da ona uzadılan süd qutusunu əlinə alıb.**

Evə gəldikdə qutunun qapağının açılmış olduğunu fərq edib. Yaşlı qadın düşünüb ki, yəqin kimsə qutunu açıb, ya da qutunun qapağı yaxşı bağlanmayıb. Oğlu isə anasının şübhələrini gördükdə, qutunu ehtiyatla açmağa başlayıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, qadının oğlu süd qutusunu ehtiyatla açdıqda orada "bubi tələsi" - forması dəyişdirilmiş partlayıcı olduğunu görüb. Yaşlı qadının oğlu bu barədə yerli mediaya məlumat verib: "Anam qutunun açıldığını düşündü. Sandı ki, kimsə ondan əvvəl qutunu açıb, süd içib. Amma diqqətlə baxdıqda qutunun qapağı altında nazik tellər olduğunu fərq etdik. Bu tellər qutunun içindəki partlayıcıya bağlanmış vəziyyətdə idi. Qutuda süd yox idi, yalnız forması dəyişdirilmiş, əldə düzəldilmiş partlayıcı vardı. Qələmə oxşayırdı", deyən ukraynalı rus ordusunun "humanitar yardım" adı altında ukraynalılara ölüm gətirdiyini söyləyib. Ukraynalı "anama tapşırmışdım ki, rus əsgərlərin əlindən heç nə almasın. Yaşlı insandır, sanıb ki, onlar da bizim kimi insandırlar. Amma belə deyilmiş". Yerli media bunu da yazır ki, Rusiya ordusu yerli əhalinin etibarını qazanmaq üçün Ukraynada istehsal edilmiş məhsullardan əhaliyə paylayır. Amma deməli, arada "özfəaliyyət"ə yer verirlər.




**Məlahət**

## Uzun dırnaqlar sağlamlıq üçün təhlükəlidir

Dırnaqların altından 32 növ bakteriya, 20 adda göbələk aşkarlanıb

**Çox uzun dırnaqlar, süni dırnaqlar, müasir manikür sağlamlıq üçün təhlükəlidir.**



Biologiya elmləri üzrə professor Cefri Kaplan uzun dırnaq plastininin zərəri və təhlükəsi barədə açıqlama verib.

Uzun dırnaqlar bakteriya, göbələk üçün əsl anbar rolunu oynayır.

"Dırnaq plastini nə qədər çox uzundursa, ona zərərli mikroorqanizmlərin yapışması imkanı daha çoxdur. Hətta su ilə belə onları yuyub təmizləmək çətindir.

Elmi araşdırma zamanı uzun dırnaqların altından 32 növ bakteriya, 20 adda göbələk aşkarlanıb. Onların içində dözümlü statilakokk belə var. (Bakupost.az)

Fərqi yoxdur, təbii, yoxsa süni dırnaq, boya çəkilib, yoxsa çəkilməyib, əgər onlar barmaqdan xeyli irəli çıxıbsa, onların altında xeyli mikrobun olması ehtimalı bir o qədər yüksəkdir.

Dırnaqların altını xüsusi alətlə təmizləmək belə çıxış yolu deyil. 1 saat sonra göbələklər yenə yapışır.

Barmağı ağız apardıqda, əllərlə yemək yedikdə, dırnaqlarla dərini, baş dibini qaşıdıqda mikrob dərinin altına, ordan da orqanizmə asanlıqla keçir.

Bundan əlavə ayrıca dırnaq infeksiyaları da yarana bilər.

Xüsusən azyaşlı uşaqları olan qadınlar bu dırnaqlarla nəinki özlərini, hətta uşaqlarını da təhlükəyə atırlar" - deyə həkim xəbərdar edib.